

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 noyabr 2025-ci il, şənbə
№ 218 (7045)
Qiymət i 60 qəpik


## Sənayeləşmədə yeni mərhələ...




Bax səh. 2




## Dünya Bakıda bir araya gələcək

Bax səh. 4

## Türk dövlətləri media sahəsində əlaqələri gücləndirir

Bax səh. 2



## Davamlı sabitliyin əsas şərti - SÜLH!

### Xalq diplomatiyası işə salınıb - sülh körpüsü qurulur

Bax səh. 3

## İqtisadi münasibətlərdə yeni imkanlar

Bax səh. 5

### Regional İnvestisiya Fondu

Bax səh. 5

### Birgə Biznes Şuranın ilk iclasında

Bax səh. 5

### Bir gündə üç ünvan!

Bax səh. 6

### Papanın ilk xarici səfəri: Niyə məhz Türkiyə?

Bax səh. 6

## İlk "Sanksiyalar" sammiti...

### Ukraynaya kömək edəcəkmi?




Bax səh. 7



## Qızıl niyə ucuzlaşır?

Bax səh. 6

# Sənayeləşmədə yeni mərhələ...

## Qeyri-neft iqtisadiyyatının aparıcı artım mənbəyi

Azərbaycanda sənayeləşmə təkcə iqtisadi siyasətin tərkib hissəsi kimi deyil, həm də uzunmüddətli dayanıqlı inkişafın təməli kimi müəyyən edilib. Bu hədəf strategiyasına uyğun olaraq, ölkəmizdə yeni mərhələyə daxil olmuş sənayeləşmə milli istehsalın artması ilə yanaşı, həm də onun səmərəliliyinin və rəqabət qabiliyyətinin güclənməsinə töhfə verməkdədir. Son illərdə sənaye zonalarının inkişafını təmin edən investisiya təşviqləri sayəsində müasir texnologiyaların tətbiqi, ən qabaqcıl innovasiya infrastrukturunun qurulması və ixracı stimullaşdıran güclü ekosistemlərin yaradılması geniş vüsət almaqdadır. Bu baxımdan Prezident İlham Əliyevin bugünlərdə açılışını etdiyi "AZWOOL" mineral daş yunu zavodu ölkə sənayesinin yeni qollarından biri olmaqla milli sənaye istehsalına dəyər qatacaq müəssisələrdən biri hesab edilə bilər. Qeyri-neft sənayesində və milli ixracımızda özünəməxsus yeri olan "Matanat-A" şirkətinin yeni istehsal bölməsi olan zavod inşaat materialları sektorunda potensialımızı artıracaq.

Ərazisi 10 hektar olan "AZWOOL" mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb ki, bu da innovasiyayönümlü istehsalın yaradılması deməkdir. İllik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunu olan müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır ki, bu da digər sənaye sahələri ilə əlaqəlini təmin etməklə, məşğulluq üçün də mühüm əhəmiyyət kəsb edir.

İnvestisiya dəyəri 43 milyon manat təşkil edən zavod tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstan, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.




## Sənaye parkları ixracın artmasını təşviq edir

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafının təmin edilməsidir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət və dövlətin təşviqedici qərarları sayəsində rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiq olunduğu güclü sənaye zonaları bloku formalaşıb. Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması və digər sənaye zonalarında yeni rezidentlərin qeydə alınması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Həmçinin cari ilin ortalarında fəaliyyətə başlayan "Laçın Aqro-Sənaye Parkı"ndakı "PIRSHAGHI" və "LATIFA" fabrikləri ölkəmizin sənaye zəncirinə qoşulmaqla ölkə iqtisadiyyatına reinteqrasiyanı təmin etməkdədir.



## Naxçıvan və Gəncədə innovativ sənaye bloku yaradılır

Hazırda Naxçıvan Muxtar Respublikasında yaradılan Naxçıvan Sənaye Parkı ölkəmizin iqtisadi imkanlarının daha da artması, qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft resurslarının tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Sənaye Parkının yaradılması ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasına əlavə güc qatacaq. Bu sənaye parkı Azərbaycanın sənaye ixracına qoşulmaqla qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verəcək.

Eləcə də "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) törəmə şirkəti olan "AzerBlast" MMC tərəfindən Gəncə şəhərində ölkəmizdə ilk dəfə olaraq sənaye əhəmiyyətli partlayıcı maddələr istehsal edəcək zavodun inşası davam etdirilməkdədir. Ümumi sahəsi 5 min 665 kvadratmetr olan istehsal müəssisəsi regionların sosial-iqtisadi inkişafına dair dövlət siyasətinə uyğun olaraq Kəpəz rayonunda, 15 hektar ərazidə inşa edilir. İllik istehsal gücü 31 min ton həcmində qiymətləndirilən zavodun inşasının cari ilin sonunadək tamamlanaraq istifadəyə verilməsi nəzərdə tutulub. Müasir istehsalat texnologiyaları əsasında qurulan müəssisədə, xüsusilə dağmədən və inşaat sənayesində istifadə olunan partlayıcı növləri "H-ANFO", "ANFO"nun istehsalı həyata keçiriləcək.

## 10 ayda 52 milyard manatdan çox sənaye məhsulu istehsal olunub

Ümumilikdə, respublikamızda fəaliyyət göstərən 9 sənaye parkının potensialının artması qeyri-neft sənayesinin inkişafını təmin etməklə, bu sektorun əsas əlavə dəyəri formalaşdıran fiskal sahə olduğunu göstərir. Bu ardıcıl xarakter daşıyan sənayeləşmə strategiyasının nəticəsidir ki, sənayenin ÜDM-də və qeyri-neft ixracında payı yüksəlir. Son 5 ildə Azərbaycanın sənaye zonalarına 750 milyon manatdan çox investisiya yatırılıb, 12 milyard manatlıq məhsul satışı həyata keçirilib və 4 milyard manatdan çox sənaye məhsulu ixrac edilib. Sənaye zonalarında istehsal edilən məhsullar 50-dən artıq ölkəyə ixrac olunur.

2025-ci ilin yanvar-oktyabr aylarında ölkəmizdə 52,6 milyard manat həcmində sənaye məhsulu istehsal olunub ki, əlavə dəyərin əsas hissəsi qeyri-neft sənaye sektorunda yaradılıb. Qeyri neft-qaz sənayesində dəyər 4,9 faiz artmaqla, sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

## Sənaye sahəsinin inkişafı prioritetdir

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində sənayenin inkişafı prioritet olaraq müəyyənləşdirilib. Dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Sənədə əsasən, qeyri-neft-qaz sənayesi hər il orta hesabla 8,4 faiz artacaq, sənaye zonalarının qeyri-neft sənaye istehsalında payı 15 faiz, ixracda payı isə 25 faiz olacaq.

Dövlətin institusional, iqtisadi və stimullaşdırıcı dəstəyi isə Azərbaycanın yeni sənaye transformasiyasına keçidi sürətləndirməklə, qabaqcıl texnologiyalar və təcrübə mübadiləsinə imkan verən qlobal dəyər zəncirinə inteqrasiyasını təmin edəcək. Bu, öz növbəsində qeyri-neft iqtisadiyyatının aparıcı artım mənbəyi kimi sənayenin aparıcı mövqeyini daha da möhkəmləndirəcək.

*ELBRUS CƏFƏRLİ*

# Türk dövlətləri media sahəsində əlaqələri gücləndirir

*Nardar BAYRAMLI*

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Bu gün türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır.

Azərbaycan TDT-nin təsisçi üzvlərindən biri olaraq bu təşkilatın fəaliyyətində mühüm rol oynayır. Ölkəmiz təşkilat yaranan gündən ona xüsusi önəm verib və bu istiqaməti xarici siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirib. Azərbaycan TDT-ni üzv və müşahidəçi dövlətlərilə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün vacib platforma hesab edir. Dövlətimiz TDT çərçivəsində qurumun nüfuzunu artırmaq və funksionallığını gücləndirmək üçün mütəmadi olaraq yeni təşəbbüslərlə çıxış edir.

Artıq hər il TDT-nin zirvə toplantıları çərçivəsində, eləcə də ikitərəfli münasibətlər kontekstində türk dövlətlərinin münasibətlərinin gücləndirilməsi üçün sistemli tədbirlər həyata keçirilir. Son illər TDT-nin sammitlərində qəbul olunan qərarlar türk dünyasının dünyaya qlobal güc kimi təqdim olunması yönündə atılan addımlardır. Nəzərə alaq ki, TDT müstəvisində təkcə zirvə görüşləri keçirilmir, türk dövlətlərinin müvafiq dövlət qurumlarının, strukturların təşkilatlanmış platformaları da yaradılıb və onların da vaxtaşırı toplantıları keçirilir. Təqdirəlayiq haldır ki, TDT ölkələrinin media sektoru da fəal əməkdaşlıq niyyətini nümayiş etdirir. Son günlər Bakıda türk dövlətlərinin media sahəsində birgə tədbirlərinin keçirilməsi də bunun göstəricisidir.

Belə ki, noyabrın 27-də Bakıda türk dövlətlərinin media və kommunikasiya sahəsində əməkdaşlığını möhkəmləndirmək məqsədilə Türk Dövlətləri Təşkilatının Media Forumu keçirilib. Forum çərçivəsində "Müasir dövrdə artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar: Türk dövlətlərinin media ekosistemi nümunəsində", "Rəqəmsal media mühitində TDT-yə üzv dövlətlərin qarşılıqlı əməkdaşlıq imkanları" və digər mövzular müzakirə olunub. Eləcə də, TDT-nin Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası baş tutub.

Noyabrın 28-də isə Bakıda Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı keçirilib. Toplantıda çıxış edən TDT Baş katibinin müavini Ömer Kocaman son illərdə media sahəsində əməkdaşlığın getdikcə daha sistemli və institusional çərçivədə inkişafını qeyd edərək üzv dövlətlərin media qurumları arasında məzmun mübadiləsinin genişləndirilməsi, strateji kommunikasiya sahəsində koordinasiyalı fəaliyyətin gücləndirilməsi və dezinformasiyaya qarşı çevik müdafiə mexanizmlərinin formalaşdırılmasının Türk dünyası üçün əsas prioritetlərdən birinə çevrildiyini vurğulayıb. O, təşkilatın bu əməkdaşlıq xəttini daha da dərinləşdirməkdə qərarlı olduğunu, xüsusilə informasiya təhlükəsizliyi və strateji kommunikasiya istiqamətlərində yeni təşəbbüslərin və birgə layihələrin icrasının nəzərdə tutulduğunu bildirib.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, TDT-nin media və informasiya sahəsində əməkdaşlığı üzv ölkələri ortaq tarix, mədəni və dil birliyi ətrafında birləşdirən strateji platforma kimi xüsusi əhəmiyyət daşıyır. O, informasiya mübadiləsinin genişləndirilməsi, saxta xəbərlər və hibrid təhdidlərə qarşı birgə mübarizə, eləcə də ümumtürk informasiya məkanının daha dayanıqlı və koordinasiyalı şəkildə qurulmasının bu əməkdaşlığın əsas hədəflərindən olduğunu vurğulayaraq Azərbaycan tərəfinin qlobal media trendlərinin təhlili, media savadlılığının artırılması və




strateji kommunikasiya üzrə birgə təşəbbüslərin davam etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Kanat İskakov bildirib ki, Türk dünyası ortaq tarixi, mədəniyyəti və digər sahələrdə irsi olan coğrafiyadır. Biz bu gün müştərək kontent və layihələrimizi həyata keçiririk. Ortaq proqramlarımız var ki, bu da bizim üçün konkret nəticələrin əldə edilməsi baxımından böyük fürsətdir. "Qazaxıstan xalqlarımızın və ölkələrimizin rifahına xidmət edən təşəbbüslərə açıqdır və təklifləri var. Biz sənədli film layihələrini, turizm, mədəniyyət və digər TV məzmunlarını hazırlamalıyıq. Bu istiqamətlərdə müəyyən işlər var, amma onları canlandırmaq lazımdır. Uşaqlar üçün ortaq mədəniyyət əsasında cizgi filmləri təqdim etməliyik. Bu, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq. Media sahəsində hansısa material yaradırıqsa, süni intellektdən elə istifadə etməliyik ki, yaradılan məlumatın etibarlılığı təmin olunsun", - deyə nazir müavini vurğulayıb.

Qırğızıstanın Azərbaycandakı səfiri Maksat Mamıtkanov diqqətə çatdırıb ki, bu gün TDT-yə üzv ölkələr müxtəlif sahələrdə geniş əməkdaşlıq edirlər. O deyib: "Bu əməkdaşlığın əsas aparıcı sütunlarından biri də informasiya və media sahəsidir. Çünki düzgün məlumatın vaxtında və etibarlı şəkildə təmin edilməsi, qarşılıqlı faydaya əsaslanan sağlam informasiya axınlarının yaradılması bizim üçün böyük əhəmiyyət kəsb edir". Səfir vurğulayıb ki, rəqəmsal platformaların sürətlə inkişafında yeni çağırışlar və təhdidlər də ortaya çıxarır. Təhlükəsiz, şəffaf və ədalətli media mühiti yaratmaq bu təhdidlərin qarşısının alınmasına mühüm töhfə verir.

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamenti rəhbərinin müavini Ferhat Pirinççi isə bu toplantının yalnız bir iş platforması deyil, eyni zamanda, ortaq coğrafiyamızın kommunikasiya, media və informasiya sahəsində daha güclü birlik yaratması üçün strateji addım olduğunu deyib. O, həmçinin bildirib: "Hər bir üzv dövlətin media, informasiya və kommunikasiya sahəsində ortaq mövqeyə sahib olduğunu görürük. Türk dövlətlərinin təmsilçiləri olaraq yeni həll mexanizmlərini inkişaf etməyimiz üçün bu toplantını mühüm fürsət kimi qiymətləndiririk. TDT regional bir qurum olmaqdan çıxaraq qlobal bir aktor olma yolunda irəliləməkdə və nümunəvi əməkdaşlıq modelinə çevrilməkdədir. Bu yanaşma ilə Türk Dövlətləri Təşkilatının qlobal beynəlxalq aktora çevrilməsi, regional səviyyəni aşaraq dünya miqyasında bir çox məsələdə söz sahibi olması olduqca önəmlidir. UNESCO tərəfindən Dünya Türk Dili Ailəsi Gününün elan edilməsi isə Türk dünyası üçün böyük bir qazanc olmaqla, türk dillərinin zənginliyini, dərin köklərə malik mədəni irsini və dünya sivilizasiyaları içindəki önəmli yerini bir daha göstərib".

Özbəkistan Prezidentinin Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Məzmunun İstehsalı Mərkəzinin direktoru Kobuljon Axmedov nəzərə çatdırıb ki, biz artıq media sahəsində gələcək əməkdaşlıq istiqamətlərini formalaşdırırıq. Hazırladığımız tədbirlər planının həyata keçirilməsi ilə bağlı müzakirələr davam edir və bu prosesdə üzv dövlətlərin fəal iştirakı böyük əhəmiyyət daşıyır. Peşəkarlıq səviyyəsinin artırılması, təcrübə mübadiləsi, ortaq məzmunun yaradılması və informasiya mühitinin gücləndirilməsi qarşıdakı əsas prioritetlərimizdir.

Tədbirdə, həmçinin TDT-nin müşahidəçi üzvü Şimali Kipr Türk Respublikasının xarici işlər naziri Tahsin Ertuğruloğlu çıxış edərək bildirib ki, media və informasiya məsələləri abstrakt sahələr deyil. Media həm yaddaşımızı, həm kimliyimizi, həm də mübarizəmizi özündə ehtiva edən strateji bir alətdir. Ortaq media əməkdaşlığının gücləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edən nazir bildirib: "Şimali Kipr TDT çərçivəsində yaradılan mexanizmlərə, eləcə də media sahəsində əməkdaşlığa hazırdır. Düşünürəm ki, bu addım Türk dünyasının həmrəyliyini gücləndirir və informasiya sahəsində daha balanslı, obyektiv mühitin formalaşmasına töhfə verir. Biz artıq rəqəmsal təbliğatın, manipulyativ məlumatların və dezinformasiyanın ciddi təhlükə yaratdığı bir dövrdə yaşayırıq. Bu səbəbdən peşəkar təlim proqramlarının keçirilməsi, jurnalistlərin, gənc kontent istehsalçılarının və media mütəxəssislərinin bacarıqlarının artırılması son dərəcə vacibdir. Ortaq fəaliyyətlərimiz Türk dünyasının media gücünü daha da artıracaq və səsimizin qlobal arenaya daha səmərəli şəkildə çıxmasına imkan verəcək".

Toplantı çərçivəsində üzv dövlətlərin qarşıdakı dövr üçün prioritet fəaliyyət istiqamətləri nəzərdən keçirilib, Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 8-ci toplantısının və Media və informasiya üzrə işçi qrupunun 13-cü iclasının Qazaxıstanda keçirilməsi qərara alınıb.

Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısının sonunda Kommünike qəbul edilib.



# Davamlı sabitliyin əsas şərti - SÜLH!

## Xalq diplomatiyası işə salınıb - sülh körpüsü qurulur

Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın, iqtisadi inkişafın və rifah cəmiyyəti quruculuğunun əsas şərti sülhdür. Sevindirici haldır ki, onilliklər boyunca Ermənistanın işğalçılıq siyasətindən, yeni müharibə risklərindən əziyyət çəkən Cənubi Qafqaz indi heç vaxt olmadığı qədər sülhə yaxındır. Cari il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycan, Ermənistan və Amerika Birləşmiş Ştatlarının liderlərinin iştirakı ilə baş tutan görüşdə birgə Bəyanatın verilməsi, xarici işlər nazirlərinin yekun sülh sazişini paraflamaları və digər razılaşmaların əldə olunması regionda müharibə səhifəsini birdəfəlik bağlamaq və gələcəyə baxmaq üçün son dərəcə əlverişli fürsətlər yaradıb. İndi bu fürsətlərin reallığa çevrilməsi mərhələsidir ki, burada da Azərbaycan və Ermənistan dövlətlərinin siyasi qətiyyəti, eləcə də cəmiyyətlərin mövqeyi mühüm önəm daşıyır.

### Qalib Azərbaycan sülh gündəliyinə, Vaşinqton razılaşmalarına sadiqdir

Əslində, bu, bir reallıqdır ki, regionda sülh üçün pəncərələri Azərbaycan açıb. İki ölkə arasında artıq tarixdə qalan otuz illik münaqişənin əsas səbəbi Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından çıxış etməsi olub. Bu ölkə ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamıza qarşı ərazi iddialarını açıq müstəviyə keçirməklə işğalçılıq siyasətinə başlayıb.

Təbii ki, Azərbaycan dövləti və xalqı işğal faktı ilə barışa bilməzdi və barışmadı da. Müzəffər Silahlı Qüvvələrimizin 44 günlük müharibədə qazandığı şanlı Zəfər sayəsində Azərbaycan özünün ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi. Bundan sonra 2023-cü ilin sentyabr ayında Ordumuz 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı həyata keçirdi, Xankəndidəki və digər ərazilərimizdəki separatizm yuvasını tamam dağıtdı. Bir vaxtlar ölkəmizə qarşı dövləti və amansız müharibə cinayətləri törətmiş şəxslər tutularaq Bakıya gətirildilər və hazırda onların məhkəməsi aparılır.

Beləliklə, Azərbaycan iki ölkə arasında uzun sürən münaqişənin əsas səbəbini kənardan dəstək almadan sırf öz gücünə aradan qaldırmağa nail oldu və dərhal da münasibətlərdə düşmənçiliyə son qoymaq istəyini - sülh təşəbbüsünü gündəmə gətirdi. Sonradan müxtəlif mərhələlərdən keçməklə, ayrı-ayrı platformalarda müzakirələri aparılmaqla Vaşinqton razılaşmalarınadək irəliləyən sülh prosesinin təməlində dayanan baza sənədi məhz Azərbaycanın müharibə başa çatandan dərhal sonra Ermənistana ünvanladığı 5 bənddən ibarət sülh paketi olub. Sonrakı mərhələdə sülh prosesi Ermənistandakı ayrı-ayrı qüvvələrin və bu ölkənin xarici havadarlarının çoxsaylı manipulyasiyalara əl atmaları səbəbindən çətin irəliləsə də, haqq yolunda olan, beynəlxalq hüquq çərçivəsində davranan qalib Azərbaycan özünün həqiqətlərini, regionda yaratdığı reallıqları dünyaya qəbul etdirməyə nail oldu. Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə liderlərin verdiyi birgə Bəyanat, sülh sazişinin paraflanması bunun deyure təsdiqlənməsidir.

Vaşinqtonda paraflanan sazişin mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır. Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər. Beləliklə, onilliklər ərzində işğalçılıq siyasətindən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında yeni bir dönəm başlayıb. Ötən dövrdə Azərbaycanın siyasi rəhbərliyi müxtəlif daxili və xarici auditoriyalar qarşısında ölkəmizin sülh prosesinə, Vaşinqton razılaşmalarına sadiqliyini dəfələrlə birmənalı şəkildə təsdiqləyib. Azərbaycanı fərqləndirən əsas məqamlardan biri də ondan ibarətdir ki, ölkədə sülhyaratma prosesi ilə bağlı fikir ayrılığı yoxdur, bütün siyasi qüvvələr və vətəndaş cəmiyyəti təsisatları hakimiyyətin bu istiqamətdə apardığı siyasəti dəstəkləyir. Azərbaycan tarixi unutmamaqla sülhə qapıları açıq saxlayır.

### Cəmiyyətlər arasında etimad quruculuğuna doğru

Azərbaycan və Ermənistan eyni coğrafiyanı bölüşürlər. Bu iki dövlətdən birinin qonşuluq coğrafiyasını dəyişmək imkanı sıfıra bərabərdir. Vurulan yaralardan sonra barışıq mühiti yaratmaq çətin görünsə də, əbədi düşmənçilik də istisnadır. Bu mənada Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin təmsilçilərinin görüşlərinə start verilməsi nikbinlik doğurur. Xalq diplomatiyasının işə salınması ilə sülh prosesində yeni və çox mühüm mərhələ başlayıb.

Beləliklə, Vaşinqton razılaşmasından sonra sülh prosesi dövlətlər və liderlər tərəfindən irəli aparıldığı kimi, cəmiyyətlər də barışığa hazırlanır. Bu çərçivədə ilk görüş İrəvanda baş tutub. Cari il oktyabrın 21-22-də Azərbaycan və Ermənistan ekspert cəmiyyətlərinin nümayəndələrinin birgə təşəbbüsü və hər iki ölkənin rəsmi strukturlarının dəstəyi ilə İrəvanda ikitərəfli dəyirmi masa keçirilib. Bu formatda görüş Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannamənin ruhuna uyğun olaraq sülh gündəliyinin təşviq edilməsi məqsədi daşıyır. Görüş zamanı iştirakçılar iki ölkə cəmiyyətini narahat edən çoxsaylı mövzuları müzakirə ediblər. Qrupun birgə fəaliyyət planlarının hazırlanmasına və perspektivlərinə xüsusi diqqət yetirilib. Səfər çərçivəsində iştirakçılar həmçinin Ermənistan Respublikasının Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ilə görüşüblər. İştirakçılar sosial qrupların, vətəndaş cəmiyyəti institutlarının, ekspert çevrələrinin və medianın da prosesə cəlb olunmasının vacibliyini vurğulayıblar.

Növbəti görüş noyabrın 21-22-də Bakıda keçirilib. Bakıda "Sülh körpüsü" təşəbbüsü çərçivəsində keçirilmiş görüşlərdə əldə olunmuş razılaşmaların siyahısı kifayət qədər genişdir. Vətəndaş cəmiyyətinin dialoqu dəstəkləməkdə rolu və gələcək birgə addımlara xüsusi diqqət yetirilib. Müzakirələrin nəticəsi olaraq konkret razılaşmalar əldə olunub. Bunlar aşağıdakılardır:

- media sahəsində kontaktların aktivləşdirilməsi;
- müxtəlif sahələr üzrə ekspertlər arasında birbaşa ünsiyyətin qurulması;
- vətəndaş cəmiyyətinin məlumatlandırılması mexanizmlərinin tətbiqi;
- sülh təşəbbüsü çərçivəsində qarşılıqlı səfərlərin təşkili.



### "Sülh körpüsü" formatının üzvləri müzakirələrdən məmnundurlar

Hər iki tərəfdən "Sülh körpüsü" formatında yer alan nümayəndələr aparılan müzakirələrdən məmnundurlar və görüşlərin sülh prosesinə töhfə verəcəyinə əmindirlər. İrəvan və Bakı görüşlərində iştirak edən Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin sədri Fərhad Məmmədov bildirib ki, konkret istiqamətlər üzrə layihələrin həyata keçirilməsinə hazırlıq işinin başlanması təsdiq edilib. Bundan sonra artıq fərqli istiqamətlərdə tədbirlər planlaşdırılır, tədbirlər ancaq ikitərəfli formatda həyata keçiriləcək. Tədbirlər çərçivəsində hər iki tərəfdən nümayəndələrin səfərləri təşkil olunacaq və hər iki ölkə ziyarət ediləcək. Bu səfərlərdə təkcə bu qrupun üzvü olan 5 nəfər deyil, daha çox vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Öz növbəsində Ermənistan tərəfindən nümayəndə heyətinin üzvü olan Areq Koçinyan İrəvana qayıtdıqdan sonra jurnalistlərlə görüşdə təəssüratlarını bölüşüb, bəzi diqqətçəkən açıqlamalar verib. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə görüşdən danışan Koçinyan rəsmi Bakının Ermənistan ictimaiyyətinə bir neçə mesajın çatdırılmasını xahiş etdiyini deyib. Sitat: "Hacıyev vurğuladı ki, Azərbaycan-Ermənistan münaqişəsi artıq Azərbaycan üçün mövcud deyil, bitib. Onlar müharibəsiz, sülh vəziyyətinə əsaslanan bir dünya qurmaq, bizimlə hərtərəfli və uzunmüddətli sülhə can atmaq istəyirlər. Digər mesaj budur ki, Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur".

Koçinyanın sözlərinə görə, Ermənistandakı bəzi siyasi dairələr "cəmiyyətdəki qəzəb, məyusluq və qorxu hissindən siyasi məqsədlər üçün sui-istifadə etməyə çalışır" və bu, "çox iyrənc haldır". Ardınca o sərt şəkildə bildirib: "Ermənistan siyasi meydanında azərbaycanlı-erməni və türk-erməni münasibətlərinin tənzimlənməsinə qarşı çıxan hər kəs ya xarici agentdir, ya nankordur, ya da nə danışdığını başa düşməyən apolitik sarsaqdır".

### Ermənistanda yaşanan isterika, qəzəb və revanşizm

"Sülh körpüsü" formatında ilk görüşlərin keçirilməsi ilə etimad quruculuğuna doğru mühüm addım atılmış olsa da, hər şeyin rəvan getdiyini söyləmək mümkün deyil. Azərbaycan cəmiyyəti otuz illik işğaldan əziyyət çəkən tərəf olmasına rəğmən, "Sülh körpüsü" formatında İrəvanda və Bakıda görüşlərin keçirilməsini anlayışla qarşılayıb. Bəli, biz tarixi, qəlbimizi göynədən faciələrimizi, şəhidlərimizi unutmuruq, ancaq gələcək nəsillərin xoşbəxtliyi naminə sülh prosesini də dəstəkləyirik.

Ancaq eyni fikirləri Ermənistan barəsində ifadə etmək mümkün deyil. Bu ölkədə hakimiyyətin, siyasi qüvvələrin, kilsənin sülh prosesinə, o cümlədən də etimad quruculuğuna münasibəti bir-birindən fərqlənir, konsensus yoxdur. Hazırda hakim komanda gələn il keçiriləcək parlament seçkilərinə cidd hazırlıqlar görür. İqtidar komandasının rəhbəri, "Vətəndaş Müqaviləsi" partiyasının idarə heyətinin sədri Nikol Paşinyan bugünlərdə keçirdiyi brifinqdə 2026-cı il parlament seçkilərində partiyanın seçki siyahısına başçılıq etmək və yenidən Baş nazir postuna namizədliyini irəli sürmək niyyətində olduğunu açıqlayıb.

Əslində, indiki komandanın gələn il keçiriləcək seçkilərdə qələbəsini təmin etməsi sülh prosesinin xeyrinədir. Məlumdur ki, Ermənistan cəmiyyətinin müəyyən kəsiminə revanşizm əhval-ruhiyyəsi hakimdir. Zamanla kilsə, xaricdəki lobbi dairələri Ermənistan cəmiyyətinə Azərbaycana və Türkiyəyə nifrət aşılayıb. Həmçinin bu ölkədə çoxları hələ çürük ideologiyanın əsirliyindən xilas etmək üçün illər lazım gələcək. Yaxşı haldır ki, Baş nazir Nikol Paşinyanın komandası bu istiqamətdə fəaliyyətlərə başlayıb. Erməni miflərini N.Paşinyanın özü dağıdır. O, revanşistlərin, kilsənin, xaricdəki erməni lobbisinin qəzəbinə baxmayaraq, Azərbaycanın ərazi bütövlüyünü, Qarabağı respublikamızın tərkib hissəsi kimi tanıdığını bildirib. O, cəsarətlə vurğulayır ki, erməniləri aldadıblar, virtual Ermənistan ideyası puçdur, real Ermənistanı qəbul etmək lazımdır. İndiyədək Ermənistan cəmiyyəti üçün ən qorxulu mif kilsə ilə bağlı idi. Azərbaycan və Türkiyəyə münasibətdə dözümsüzlük ideyası məhz kilsədən yayılırdı. Ən pis cəhət o idi ki, Ermənistanda kilsə ətrafında bir tabu qurulmuşdu. Heç kəs kilsəyə qarşı danışa bilməzdi, oradan gələn ideyalar hər nə qədər zərərli olsa da, "müqəddəs" sayılırdı. N.Paşinyan kilsə mifini dağıtmaqla öz xalqını sanki dərin yuxudan oyatdı. Sən demə, baş keşişin özü ən böyük saxtakar imiş. N.Paşinyan ölkəsinin gələcədə "dənizdən-dənizə Ermənistan" xülyası ilə yaşayırlar. Bunlar Ermənistan cəmiyyətinin, necə deyərlər, metastaz vermiş xəstəliyidir. Bu miflərdən qurtulmaq, xüsusilə də gəncləri yini Azərbaycanla sülh sazişinin imzalanmasında gördüyünü bir neçə dəfə açıq mətnlə bəyan edib.

Ermənistanda hakim komanda sülh prosesinə sadiqliyini bildirib etimad quruculuğu prosesinə dəstək göstərsə də, bəzi qüvvələr "Sülh körpüsü" formatında başlanan prosesi əngəlləmək istəyirlər. "Alçalma, ədalətsizlik, qorxu və təhdid şəraitində nə sülh, nə də etimad qurmaq mümkündür". ArmInfo-nun məlumatına görə, parlamentini müxalif "Ermənistan" fraksiyasından olan deputat İşxan Saqatelyan Ermənistan vətəndaş cəmiyyətinin 5 nümayəndəsinin Bakıya səfərini şərh edərək Facebook səhifəsində belə yazıb. Xatırladaq ki, daşnak Saqatelyan İkinci Qarabağ müharibəsindən sonrakı ilk illərdə Paşinyan və komandasının əleyhinə kütləvi etiraz aksiyalarını təşkil etməyə cəhd göstərsə də, buna nail ola bilməmişdi. İndi isə o, etimad quruculuğu prosesinə narazılıq edir: "Ermənistan Respublikası hökuməti Ermənistan nümayəndə heyətinin birbaşa reyslə daşınmasının təşkilinə 17,5 milyon dram ayırıb, səfərin məqsədi isə iki ölkə cəmiyyətləri arasında etimadın möhkəmləndirilməsi kimi əsaslandırılıb" deyən İşxan Saqatelyanın qənaətinə görə, "Sülh körpüsü" formatında baş tutan görüşlərin gündəliyinə separatçıların həbsi və "Artsax"da etnik təmizləmə" məsələləri də salınmalı idi.

Görünür, Ermənistanda İşxan Saqatelyan kimiləri hələ də keçmişin qış yuxusundan ayılmayıb, hələ də miflərdən qurtulmayıblar.

*Mübariz ABDULLAYEV*




# Dünya Bakıda bir araya gələcək

Azərbaycan dünyada əməkdaşlıq və dialoq məkanı kimi tanınır. Ölkəmiz indiyədək dünya birliyinin etimadını yüksək səviyyədə doğruldaraq ayrı-ayrı mühüm beynəlxalq tədbirlərə böyük uğurla ev sahibliyi edib. Məsuliyyətli dövlət olan Azərbaycan ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə bir qayda olaraq həssas yanaşmalar sərgiləyir, səmərəli müzakirələrin aparılmasına şərait yaradır və substantiv nəticələrin əldə olunmasına çalışır ki, bu da dünya birliyi tərəfindən təqdirlə qarşılanır.

Gələn il respublikamızda daha bir mötəbər beynəlxalq tədbirin keçirilməsi gözlənilir.  Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir. Bu günlərdə Nayrobidə akkreditə olunmuş beynəlxalq təşkilatlar və diplomatik korpus nümayəndələri üçün brifinqdə tədbirlə bağlı hazırlıq işləri və ümumi fəaliyyət planı barədə məlumat verilib.

## Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir

### Qlobal şəhərsalma çağırışları və institusional tərəfdaşların səfərbər olunması zərurəti

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) İcraiyyə Şurasının 3-cü sessiyası ilə paralel keçirilən bu brifinqin məqsədi diplomatik korpuslar, Azərbaycan hökuməti və UN-Habitat arasında həm WUF13, həm də onun proqnozlaşdırılan nəticələrinə dəstək göstərmək məqsədilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsidir.

Azərbaycan Respublikasının Keniya və Konqoda fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Nayrobidə daimi nümayəndəsi Sultan Hacıyevin moderatorluğu ilə keçirilən brifinq zamanı UN-Habitatın icraçı direktoru Anaklaudiya Rossbax və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev həm forumda fəal iştirak, həm də milli və institusional tərəfdaşların səfərbər olunmasına dəstək göstərilməsi ilə bağlı çağırış ediblər.

Anar Quliyev prosesdə tərəflərin əməkdaşlıqda iştirakının önəmini qeyd edib, həmkarlarını 2026-cı ildə Bakıda keçiriləcək qlobal şəhərsalma tədbirində şəhər sakinlərinin həyatını yaxşılaşdıracaq həllərin hazırlanmasında fəal iştiraka çağırıb.

Brifinqdə səsləndirilən çağırışlar hazırda dünyada izlənilən proseslər, o cümlədən də şəhərsalma ilə bağlı artan problemlər fonunda olduqca aktual görünür. BMT-nin Məskunlaşma Proqramının (UN-HABİTAT) məlumatına görə, qlobal enerji istehlakının 75 faizdən, istixana qazı emissiyalarının 70 faizdən çoxu şəhərlərdə formalaşır. Bununla belə, iqlim dəyişikliyinin təsirləri də ən çox şəhərlərdə hiss olunur. Güclü sənaye inkişafının nəticəsi olaraq temperaturun artması, dəniz səviyyəsinin yüksəlməsi, bəzi regionlarda davamlı hal alan daşqınlar, digər regionlarda su qıtlığı dünya şəhərlərinin ən çox təsirləndiyi problemlərdir.

Buna baxmayaraq, şəhərlərin ehtiyacları daxili və qlobal iqlim maliyyələşməsində kifayət qədər təmsil olunmur. Dünya təkcə yumşaldıcı tədbirlərdə geridə qalmır, həm də ən çox ehtiyac duyulan yerlərdə davamlılığa az investisiya qoyulur. "Şəhər artımının sürətini nəzərə alsaq, bu, xüsusilə narahatedicidir", - deyən UN-Habitat-ın icraçı direktoru Anaklaudiya Rossbaxın sözlərinə görə, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. O bildirib ki, 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası öhdəlikləri yeniləmək, irəliləyişi izləmək və tərəfdaşlıqları kataliz etmək üçün qlobal yoxlama məkanı olacaq.

BMT rəsmisi bildirib ki, WUF13-ün mövzusu "Evi olan dünya: təhlükəsizlik və bərabərlik" olacaq və bu, mənzil və şəhər bərabərliyi məsələlərinə diqqəti artıracaq. Hazırda dünya üzrə təxminən, 3 milyard insanın mənzil şəraitinin əlverişsiz olduğunu vurğulayan Anaklaudiya Rossbaxın sözlərinə görə, 1 milyarddan çox insan gecəqondu və ya qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır, 300 milyondan çox insan isə evsizdir. Bu kimi kədərli reallıqlar qlobal şəhərsalma çağırışlarının tam olmayan siyahısını təşkil edir  və institusional tərəfdaşların səfərbər olunması zərurətini yaradır.

**Azərbaycan digər sahələrdə olduğu kimi, dünyadakı şəhərsalma çağırışları fonunda da ortaq məqsədlər naminə həmrəylik nümayiş etdirir.  Bu baxımdan respublikamızın BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) çərçivəsində əməkdaşlığı da böyük önəm daşıyır. Bu əməkdaşlığın nəticəsində Azərbaycanda ilk dəfə olaraq 2022-ci il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qatıldığı 1-ci Milli Şəhərsalma Forumu təşkil edilib**

### Azərbaycanın ortaq məqsədlər naminə güclü həmrəyliyi

Azərbaycan digər sahələrdə olduğu kimi, dünyadakı şəhərsalma çağırışları fonunda da ortaq məqsədlər naminə həmrəylik nümayiş etdirir.  Bu baxımdan respublikamızın BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) çərçivəsində əməkdaşlığı da böyük önəm daşıyır. Bu əməkdaşlığın nəticəsində Azərbaycanda ilk dəfə olaraq 2022-ci il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qatıldığı 1-ci Milli Şəhərsalma Forumu təşkil edilib. 2023-cü il sentyabrın 29-da isə BMT-nin Məskunlaşma Proqramının və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi baş tutub. Cari il oktyabrın 15-də isə Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib və sonra tədbir paytaxt Bakıda davam etdirilib. Prezident İlham Əliyev tədbir iştirakçılarına ünvanladığı  məkubunda milli şəhərsalma forumlarının keçirməsini ölkəmizin dünya ilə həmrəyliyinin göstəricisi kimi dəyərləndirərək vurğulayıb: "BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində keçirilən Milli Şəhərsalma Forumları Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür. Builki forumda 60-dan çox ölkədən 200-dən artıq xarici qonağın, ümumilikdə 400-ə yaxın nümayəndənin iştirakı həm ölkəmizə olan etimadın və dostluğun, həm də şəhərsalma istiqamətində ortaq məqsədlər naminə həmrəyliyimizin göstəricisidir".

O cümlədən 2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. Şübhə yoxdur ki, bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcək.

**2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir**

### Milli inkişaf strategiyasında şəhərsalma prioriteti

İndiki reallıqlar şəraitində şəhərsalmanın optimallaşdırılması hər bir dövlət üçün həyati əhəmiyyət kəsb edir. Xüsusilə də burada əhalinin iri şəhərlərə köç etməsi tendensiyası nəzərə alınmaqla məqsədlər çoxistiqamətli olmalıdır. İnfrastruktur quruculuğu, yaşayış yerlərinin yaradılması, asudə vaxt mərkəzlərinin formalaşdırılması, genişlənmə, inklüzivlik, rahat həyat tərzi, məşğulluq kimi mühüm məsələlərin həlli mütləq qaydada əlaqələndirilməlidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir.

Hazırda respublikamızda paytaxtdan ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirilir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Onun sözlərinə görə, bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır.

Eləcə də bu gün Azərbaycan münaqişədənsonrakı bərpa modelini fəxrlə təqdim edir. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin Baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıblar. Bu proses yaxın perspektivdə daha geniş vüsət alacaq.

**Bu gün Azərbaycan münaqişədənsonrakı bərpa modelini fəxrlə təqdim edir. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir**

*Mübariz ABDULLAYEV*

# Regional İnvestisiya Fondu

## Azərbaycan və Mərkəzi Asiya ölkələri iqtisadi tərəfdaşlığın yeni yol xəritəsini hazırlayır

Daşkənddə keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Ticarət və İnvestisiya Nazirləri Şurasının I iclasında mühüm razılaşma əldə edilib. Tərəfdaş ölkələr iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, investisiya tərəfdaşlığı mexanizmlərinin işlənib hazırlanması barədə razılıq niyyətlərini bəyan ediblər ki, bu da müştərək sərmayə fondunun yaradılması üçün əsaslı zəminin yaradılması deməkdir. Tərəflər, həmçinin qarşılıqlı ticarətin inkişafına və sənaye inteqrasiyasının gücləndirilməsinə yönəlmiş tədbirlər proqramının hazırlanmasına dair niyyətlərini ifadə edib. İmzalanmış birgə kommünike sənədinə əsasən, yaxın müddətdə birgə tərəfdaşlığın çoxistiqamətli hədəflərini əks etdirən yol xəritəsi hazırlanacaq.



Hədəf prioritetinə əsasən, Azərbaycan və Mərkəzi Asiya ölkələri ticarət dövriyyəsinin həcmini ildə 20 milyard dollara çatdırmaq, "Made in Central Asia" brendi altında birgə istehsal meydanları yaratmaq, beynəlxalq maliyyə qurumları və iri investorların birgə təmsil olunduğu sənaye-infrastruktur portfeli formalaşdırmaq niyyətindədir.

**Qazaxıstan, Özbəkistan və Qırğızıstanla imzalanmış sazişlər**

Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında ikitərəfli investisiya proqramları çərçivəsində qarşılıqlı sərmayə qoyuluşları son illərdə artmaqdadır və bu prosesdə investisiya şirkətlərinin rolu xüsusi əhəmiyyət kəsb edir. Belə ki, respublikamız Qırğızıstan, Özbəkistan və Qazaxıstanla müştərək investisiya fondları təsis edib. 2023-cü ildə yaradılmış Azərbaycan-Qırğız İnkişaf Fondu aqrar-sənaye kompleksi, energetika, bağçılıq, tekstil, turizm və digər sahələr üzrə prioritet layihələrinə investisiyalar yatırmağı təşviq edir. Fond hər iki ölkənin biznes qurumlarının birgə fəaliyyətinə dəstək göstərir və nəticədə ölkələrimiz arasında əlaqələrin inkişafına və genişləndirilməsinə təkan verməkdədir.

2024-cü ildə fəaliyyətə başlayan "Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti" isə ölkələr arasında sərmayələrin qarşılıqlı təşviqinə nail olmaqdır. Fondun maliyyə portfeli hər iki ölkənin resurs imkanları hesabına formalaşır və iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkətlərin kapitalında 49 faizədək paya sahib olmaqla biznesin maliyyələşməni təmin edəcək. Ofisi Daşkənd şəhərindəki "Trilliant Tower 1" Biznes Mərkəzində yerləşən investisiya şirkətinin nizamnamə kapitalı 500 milyon dollardır. Fondun əsas prioritetlərinə birgə müəssisə statusunda istehsal, emal, ixracyönümlü sahələri qurmaq, idxalı əvəz edən və yüksək texnologiyalı məhsul istehsalını təşviq etmək, müştərək istehsal zənciri qurulmasına töhfə verməkdir.

2025-ci ilin oktyabrında Qazaxıstanın "Samruk Kazına Azərbaycan İnvestisiya Holdinqi İnvestisiya Fondu MMC" ilə Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) arasında birgə-investisiya mexanizminin təsis edilməsi üçün Çərçivə Sazişi" imzalanıb. Həmçinin, "Samruk Kazına" ilə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) arasında Əməkdaşlıq Memorandumu" sənədinə imza atılıb. Bu hüquqi-iqtisadi baza əsasında hazırda Azərbaycan-Qazaxıstan birgə investisiya fondunun yaradılması yekunlaşma mərhələsindədir.

**TDT-nin maliyyə strategiyasına uyğun addımlar**

Göründüyü kimi, Azərbaycan və Mərkəzi Asiya ölkələri investisiya tərəfdaşlığının əsaslarını yaradaraq ümumi iqtisadi hədəflərə nail olmaq üçün birgə sərmayə institutu formalaşdırmaqla, regional təşkilat səviyyəsində addımlar atmaqda qərarlıdır. Bu regional əməkdaşlıq modeli Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün əhəmiyyətli potensialı praktiki olaraq səfərbər etməklə, qarşılıqlı ticari-iqtisadi dövriyyələri də yüksəldəcək. Eləcə də investisiyaların artırılması və pul kütləsinin genişləndirilməsi üçün imkanları bir araya gətirəcək.

Bu model həm də türk dövlətlərinin vahid investisiya platformasının yaradılması strategiyasına əsaslanır. Türk Dövlətləri Təşkilatı (TDT) tərəfindən 2 il əvvəl qarşılıqlı maliyyə və investisiyaların hərəkətini stimullaşdırmaq, birgə sərmayə yatırımlarını təşviq etmək məqsədilə Türk İnvestisiya Fondu yaradılıb. Ötən il noyabrın 1-dən fəaliyyətə başlayan fondun nizamnamə kapitalı 500 milyon dollar təşkil edir. Fond ilk layihələrin icrasına start verib və yeni sahələrdə sərmayə qoyuluşları planlarını nəzərdən keçirir. İnvestisiya Fondu türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir.

**Özəl biznes üçün geniş maliyyə institutu**

Yeni sərmayə xətləri həm dövlət, həm də özəl sektoru nəzərdə tutur. Xüsusilə də, fondun maliyyə vizyonu daha çox yeni iqtisadiyyat quruculuğu prioritetlərinə əsaslanır ki, burada bərpaolunan enerji, rəqəmsal kənd təsərrüfatı və turizm kimi bir çox sahələrə investisiyaların artırılması mühüm yer tutur. Bundan başqa, fondun investisiya fəaliyyəti beynəlxalq və milli maliyyə və inkişaf institutları, eləcə də ticarət palataları və özəl müəssisələr ilə əməkdaşlığı təmin etmək, nəqliyyat və logistika zəncirlərinin, saxlama və istehsal imkanlarının genişləndirilməsini dəstəkləmək, mikro, kiçik və orta müəssisələrin layihələrini maliyyələşdirmək, rəqəmsal iqtisadiyyatı təşviq etmək və digər prioritetlərə fokuslanıb.

Bu məqsədlərə çatmaq üçün fondun maliyyə portfelinin növbəti mərhələdə daha da artırlaraq 1 milyard dolları ötəcəyi istisna olunmur. Gələcəkdə TİF-nun nəhəng bir maliyyə institutu kimi türk dövlətlərinin Mərkəzi Banklarının aktiv maliyyələşməyə cəlb edilməsi, müxtəlif layihələrdə donorluq etməsi, ələlxüsus da səhm və müxtəlif investisiya alətlərinin emissiyasında rol almasında da rolunun artacağı istisna deyil. Eyni zamanda, investisiya fondlarının da bu prosesə qoşulması mümkündür.

Beləliklə, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında yaradılması planlaşdırılan regional investisiya fondu ümumilikdə, türk dövlətlərinin vahid iqtisadi hədəf strategiyalarının tələblərindən irəli gələn çağırışlardan biridir. Qurumun fəaliyyəti sayəsində tərəflər arasında iqtisadi əməkdaşlığın səviyyəsi daha da yüksələcək ki, bu da strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək.

***E.CƏFƏRLİ***

# İqtisadi münasibətlərdə yeni imkanlar

## Azərbaycan və İordaniya əməkdaşlığı artırmaq üçün anlaşma memorandumları imzalayıb

Bakıda keçirilən Azərbaycan və İordaniya Hökumətləri arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclasında tərəflər arasında ticarət-iqtisadi, sənaye və energetika, informasiya texnologiyaları, kənd təsərrüfatı, gömrük işi, hava və dəniz nəqliyyatı, mədəniyyət və turizm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın istiqamətləri müzakirə olunub. Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev və İordaniyanın sənaye, ticarət və təchizat naziri Yarub Qudah ikitərəfli əməkdaşlığın mövcud vəziyyətini müsbət dəyərləndirərək imkanları daha da artırılmasına toxunublar.

S.Babayev bildirib ki, Azərbaycan və İordaniya arasında 30 ildən artıq dövr ərzində formalaşmış münasibətlər Prezident İlham Əliyev ilə Kral II Abdullah arasında yüksəksəviyyəli siyasi dialoqun uğurlarına əsaslanır. Dövlət başçılarının qarşılıqlı səfərləri siyasi münasibətlərin etibarlı və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan möhkəm sütunlarını formalaşdırıb və iqtisadi əməkdaşlıqda yeni mərhələnin başlanğıcını qoyub. İki ölkə arasında indiyədək imzalanmış 40-dan çox sənəd əməkdaşlığın inkişafı üçün güclü hüquqi baza formalaşdırır və yeni təşəbbüslərin reallaşdırılması üçün əlverişli imkanlar yaradır.

Rəsmi Bakı və Əmman iqtisadi əlaqələri də siyasi münasibətlər səviyyəsinə yüksəltməyin, bununla bağlı ölkələrimizin mövcud potensialını reallaşdırmağın başlıca vəzifə olduğunu bəyan edib və bu istiqamətdə qətiyyətli iradə nümayiş etdirməkdədir. Bu prosesdə isə Hökumətlərarası Komissiyanın fəaliyyəti mühüm platforma rolunu oynayır. Komissiyanın davamlı iclaslarının keçirilməsi Azərbaycan və İordaniya arasında çoxşaxəli əməkdaşlığın daha da genişləndirilməsini təşviq edən əlaqələndirici təsisat olmaqla, iqtisadi təmasların irəliyə getməsində daim təşəbbüskarlıq göstərir.

**İordaniya Şimal-Cənub və Orta Dəhlizə qoşulmaq niyyətindədir**

Hökumətlərarası Komissiyanın IV iclası müasir çağırışlar və bölgədə yaranmış yeni iqtisadi-ticari-logistika tələbatların artması fonunda öz gündəliyində yeni istiqamətlər müəyyən edib və indi daha intensiv təşəbbüslər əsasında fəaliyyət planı hazırlanacaq. Yeni yol xəritəsinin əsas istiqamətlərindən biri regional transformasiyada qarşılıqlı logistika bağlantılarının koordinasiyasıdır.

Belə ki, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsindən sonra bölgədə yaranan geosiyasi və iqtisadi dəyişikliklər Cənubi Qafqazda yeni inkişaf landşaftının da formalaşdırmaqdadır. Xüsusilə də, Vaşinqtonda imzalanmış tarixi Bəyannamə Azərbaycan və Ermənistan arasında sülh prosesi etimadını gücləndirməklə böyük bir əməkdaşlıq və rifah çərçivəsini müəyyən etməkdədir. Bu, iqtisadi-nəqliyyat layihələrndə ABŞ başda olmaqla, dünyanın bir çox ölkəsinin marağının artması fonunda İordaniyanın da proseslərdən kənarda qalması məqsədəuyğun olmazdı. Yeni nəqliyyat arteriyası təkcə Cənubi Qafqaz deyil, eyni zamanda, Mərkəzi Asiya və Yaxın Şərq üçün də ticarət, logistika, enerji tranziti və regional inteqrasiya sahələrində geniş imkanlar açır və regionda investisiya, turizm, tranzit, logistika üçün sabit, proqnozlaşdırıla bilən və əlverişli mühit formalaşdırır. Ona görə də, rəsmi Bakı Əmmanı yaranmış əlverişli logistika zəncirlərinə qoşulmasına dəvət edir, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək Zəngəzur dəhlizinin Türkiyə və Yaxın Şərqə qədər uzanacaq nəhəng nəqliyyat habına inteqrasiyada fəal olmasını arzulayır.

İordaniyanın sənaye, ticarət və təchizat naziri Yarub əl-Kudanın vurğuladığı kimi, iqtisadi əməkdaşlığın daha da inkişafı üçün səylərin birləşdirilməsi məqsədəuyğundur və daha stimullaşdırıcı iqtisadi-hüquqi qərarların verilməsində maraqlıdırlar.



**Azərbaycanın yeni ixrac siyasəti İordaniya bazarlarını əhatə edir**

İordaniya Azərbaycanın təşəbbüskar addımlarını alqışlayaraq mövcud reallıqlara uyğun logistika rəqabətindən geri qalmamaq üçün Yaxın Şərq-Asiya regionunda formalaşan nəqliyyat-logistika qovşaqları ilə öz infrastrukturlarını Şimal-Cənub və Orta Dəhlizlə əlaqələndirilməsini vacib sayır. Hökumətlərarası Komissiyanın həmsədri Yarub əl-Kudanın vurğuladığı kimi bu istiqamətdə Şimal-Cənub nəqliyyat marşrutunda aparıcı yer alan respublikamızın bölgədəki liderliyi və MDB ölkələri bazarlarına çıxış üçün strateji platforma olması Əmman üçün mühüm fürsətdir. Ona görə də bu tarixi imkanlardan maksimum faydalanmaq üçün öz liman və logistika infrastrukturlarını həmin tranzitlərə inteqrasiyası sürətləndiriləcək.

Bu isə Azərbaycanla ticari daşınmaların, habelə Yaxın Şərq regionu ilə iqtisadi mübadilələrin artmasında İordaniyanın imkanlarını artıra bilər. İordaniyalı nazirin qeyd etdiyi kimi bu təşəbbüsün reallaşması həmin regionda Azərbaycanın özəl sektoru üçün Yaxın Şərq regionuna açılan "mühüm qapı" olmaqla, Suriya və digər qonşu ölkələrin də vahid bir ticari bağlantılarda inteqrativ əməkdaşlıq klubunu formalaşdıracaq.

Azərbaycan və İordaniya iqtisadi-investisiya mübadilələrini də artırmaqda qərarlıdır. S.Babayevin fikrincə, tərəflər arasında daha böyük potensial mövcuddur və praktiki olaraq səfərbər etmək mümkündür. İkitərəfli ticarəti artırmaq üçün yaxşı fürsətlər var, xüsusilə də Azərbaycanın öz qeyri-neft ixracını şaxələndirmək sahəsində son illərdə intensiv addımlar atması və ənənəvi bazarlardan yeni bazarlara çıxışını təşviq edən siyasət yürütməsi bu imkanı daha da tezləşdirməyi zəruri edir. Hazırda Azərbaycan kənd təsərrüfatı, qida və digər məhsulları Körfəz və Yaxın Şərq ölkələri regionuna ixrac edən motivasiyaedici qərarlar qəbul etməkdədir ki, bu da biznesin İordaniya bazarına çıxışı üçün də stimul yarada bilər.

Qarşı tərəfin də Azərbaycan bazarında daha geniş təmsil olunması üçün münbit şərait mövcuddur. Respublikamız dərman və digər sənaye məhsullarının komponentlərinin əldə edilməsində və innovativ emal sənayesi quruculuğunda bu ölkənin potensialından faydalanmaq niyyətindədir. Habelə qarşılıqlı investisiya dialoqunun dərinləşdirilməsi birgə sənaye müəssisələrinin yaradılması üçün də konkret müsbət nəticə verə bilər.

**Qeyri-neft sektorunda yeni imkanlar**

İordaniyanın sənaye, ticarət və təchizat naziri Yarub Qudah da bunu istisna etmir. Onun fikrincə, kənd təsərrüfatı, əczaçılıq və turizm, xidmət sahələrində kifayət qədər potensial mövcuddur. Hazırda ölkəmizdə 30 İordaniya şirkəti qeydiyyatdan keçib və onlardan 19-u qeyri-neft sektorunda aktiv fəaliyyət göstərir. Bu, ona dəlalət edir ki, əsaslı baza var və bunun üzərində yeni investisiya bölmələrini qurmaq lazımdır.

Qeyd edək ki, Hökumətlərarası Komissiyanın iclası başa çatdıqdan sonra bir sıra sənədlər imzalanıb. Belə ki, Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclasının nəticələrinə dair Protokol, 2025-2027-ci illər üzrə elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələrində İcraedici Əməkdaşlıq Proqramı, gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş, turizm sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə İordaniyanın Kiçik və Orta Müəssisələrin İnkişafı Korporasiyası (JEDCO) arasında Anlaşma Memorandumu imzalanıb.

Beləliklə, Azərbaycan və İordaniya hökumətləri arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclasında əldə edilən razılaşmalar və imzalanmış protokol münasibətlərin strateji xarakter daşıdığını və birgə iqtisadi niyyəti əks etdirməklə, ticari-iqtisadi-investisiya və logistik əlaqələrin inkişafında yeni mərhələ açacaq.

***E.CƏFƏRLİ***

# Birgə Biznes Şuranın ilk iclası

**Azərbaycan və Qətər tərəfdaşlığın strateji mərhələyə çatdırılması imkanlarını dəyərləndirib**

Dohada Azərbaycan və Qətər arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın 4-cü iclası çərçivəsində Azərbaycan-Qətər Birgə Biznes Şurasının ilk iclası keçirilib. Qətərin Ticarət-Sənaye Palatasının və Azərbaycanın İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşəbbüsü ilə keçirilən tədbirdə tərəflər arasında ikitərəfli əlaqələrin, iqtisadi münasibətlərin yüksələn xətt üzrə inkişafı, qarşılıqlı faydalı əməkdaşlıq, həmçinin investisiya-ticarət və digər sahələrdə əlaqələrin gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

İclasda çıxış edən Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov qeyd edib ki, Azərbaycan-Qətər əlaqələri yüksək səviyyədə inkişaf edir. Dostluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlər iki ölkənin liderlərinin siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində möhkəmlənərək ən fəal siyasi dialoq səviyyəsinə yüksəlib. Ölkələrimiz arasında həyata keçirilmiş yüksək səviyyəli səfərlər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər mövcud əlaqələrin hüquqi bazasını formalaşdırıb. Ötən dövrdə ümumilikdə 40-dan çox sənəd imzalanıb. Bu sənədlər həm biznes, həm də turizm sahələrində əməkdaşlığın genişlənməsinə öz töhfəsini verməkdədir.

**İqtisadi-ticari sahədə yeni anlaşmalar**

Nazir vurğulayıb ki, Biznes Şurası ölkələrimiz arasında dostluq və qarşılıqlı etimada yeni təkan verir və biznes cəmiyyətlərinə, ilk növbədə özəl sektora müsbət təsir göstərir. Şura, eyni zamanda hər iki ölkənin sahibkarları arasında əlaqələrin möhkəmləndirilməsində əlaqələndirici funksiya daşımaqla daha yeni təşəbbüsləri gerçəkləşdirə bilər. Şura hər iki ölkənin iqtisadi və ticarət əlaqələrini gücləndirmək, davamlı əməkdaşlıq platforması formalaşdırmaq istəyini əks etdirir. Bildirilib ki, ölkələrimiz arasında tərəfdaşlığın möhkəmləndirilməsi üçün böyük potensial var və bu baxımdan, birgə layihələrin və təşəbbüslərin icrası xüsusi əhəmiyyət kəsb edir. Yeni gündəlikdə energetika, nəqliyyat-logistika, qarşılıqlı investisiya qoyuluşu və iqtisadiyyatın digər sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarının artırılması nəzərdə tutulur ki, hər iki tərəf bununla bağlı yeni anlaşmalar əldə edib.

KOBİA-nın rəhbəri O. Məmmədov bildirib ki, Azərbaycanın səmərəli investisiya mühiti və iqtisadi potensialı və əlverişli coğrafi mövqeyi, mühüm nəqliyyat qovşaqlarının kəsişməsində yerləşməsi və tranzit "hab"ına çevrilmək yönündə atdığı addımlar Ərəb dövlətlərinin böyük marağna səbəb olmaqdadır. Qətərli investorlar Bakı Dəniz Ticarət Limanının, Ələt Azad İqtisadi Zonasının imkanlarından faydalanmaq niyyətindədir ki, bu istiqamətdə müştərək addımların atılması nəzərdə tutulur. Həmçinin, Azərbaycan İnvestisiya Şirkəti ilə birgə sərmayələrin təşviqi, bərpa olunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın qeyri-neft məhsullarının Qətər bazarlarına çıxarılması perspektivlərinin daha da genişləndirilməsi istisna edilmir.



**Qətərdəki Azərbaycan Ticarət Evləri ixraca dəstək verir**

İqtisadi əlaqələrin inkişafı və biznes icmaları arasında partnyorluğun əlaqələndirilməsində Qətərin Ticarət və Sənaye Palatası öz mühüm missiyası ilə seçilir. Palata müvafiq qurumlar arasında əlaqələrin genişləndirilməsi, birgə tədbirlərin təşkili və işgüzar dialoqun inkişafında stimulverici rol oynayır. Qətər Ticarət və Sənaye Palatasının sədr müavini Mohamed bin Tovar əl-Kuvari bildirib ki, palata iki ölkənin biznes icmaları arasında institusional-iqtisadi məsələlərlə bağlı prosedurların asanlaşdırılmasına kömək etmək, həmçinin hər iki ölkənin iqtisadiyyatına fayda gətirəcək birgə təşəbbüs və layihələri təşviq etmək niyyətindədir. Qurum iş adamları arasında maliyyə məsələləri ilə bağlı da hərtərəfli dəstək göstərməyə hazırdır.

İqtisadi əlaqələrin inkişafında Qətərdəki Azərbaycan Ticarət Evləri də təşviqedici rol oynayır. Bu təsisatlar yüksək keyfiyyətli məhsulların Qətər bazarına çıxarılmasını təmin edir və ərəb regionunda yeni bazar deməkdir. Qətər hökuməti də Azərbaycandan ixrac olunan aqrar-sənaye malların idxalında maraqlıdır və və Ticarət Evlərinin sayının artırılmasını istəyir. Qarşılıqlı anlaşmaya uyğun olaraq, ərəb ticarət və sərgi platformalarında "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, ölkəmizdə istehsal olunan məhsulların ixracının təşviqi və genişləndirilməsi, satışının təşkili və əlaqələndirilməsi məqsədilə yeni iqtisadi alətlərin tətbiqi də nəzərdə tutulur.

Əl-Kuvari bu təşəbbüsü dəstəkləyərək əmin olduğunu bildirib ki, bu ideyaların hər biri, ələlxüsus da Şuranın fəaliyyəti qarşılıqlı investisiya axınlarının asanlaşdırılmasına, ikitərəfli ticarətin gücləndirilməsinə və hər iki ölkədə investorlar üçün daha cəlbedici mühitin formalaşmasına kömək edəcək.

**Körfəz Əməkdaşlıq Şurası yeni imkanlar açır**

Azərbaycan-Qətər əlaqələri Körfəz Əməkdaşlığı Şurası (KƏŞ) platformasında da öz dinamikliyi ilə diqqəti cəlb edir. Təşkilatın lider dövlətlərindən biri Qətərlə ikitərəfli və çoxtərəfli əlaqələri daha da inkişaf etdirmək üçün müxtəlif siyasi-iqtisadi qərarlar qəbul edilib. Yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığın genişləndirilməsi baxımından önəmli rol oynayıb. Ölkəmizdə səfərdə olan Körfəz Əməkdaşlıq Şurasının baş katibinin və nümayəndə heyətinin Azərbaycanın dövlət başçısı səviyyəsində qəbul edilməsi bu region ölkələri ilə münasibətlərin strateji gündəliyini daha da zənginləşdirib. Qətər BMT, Ərəb Dövlətləri Liqası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ÜTT platformalarında da Azərbaycanla hərtərəfli əlaqələri inkişaf etdirir.

Yeri gəlmişkən, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə KƏŞ Ticarət Palataları Federasiyası (FGCCC) arasında qarşılıqlı əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumuna əsasən, AZPROMO və KƏŞ arasında iqtisadi əlaqələrin inkişafı üçün qarşılıqlı fəaliyyətin təşviqi və investisiyaların cəlb olunması, ticarət missiyalarının təşkili yolu ilə iqtisadi dövriyyələrin artırılması nəzərdə tutulur. Bu ticari platformanın qurulması həm də Qətərlə birgə geniş bir investisiya klubunun formalaşması deməkdir.

**Orta Dəhlizdə ortaq maraqlar**

Hər iki ölkənin əlverişli coğrafi mövqeyi, mühüm nəqliyyat qovşaqlarının kəsişməsində yerləşməsi tranzit habında yer almasını şərtləndirir. Qətər Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələrdən biri kimi Şimal-Cənub nəqliyyat dəhlizinin imkanlarından istifadə edə, Azərbaycan məhsullarının ixracı genişləndirilə bilər. Eləcə də Zəngəzur dəhlizinin də ticari-kommunikasiya bağlantılarını artırması istisna deyil. Cənubi Qafqazda sülh və əməkdaşlığın möhkəmlənməsi və kommunikasiyaların açılması Körfəz ölkələri-Naxçıvan-Cəbrayıl-Füzuli-Ağdam-Yevlax-Qara dəniz avtomobil marşrutunu meydana çıxarmaqla KƏŞ dövlətlərini Qara dənizə bağlayan yeni marşrut olacaq. Azərbaycanla Qətər arasında etibarlı tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi iki dost dövlətin və xalqın milli maraqlarına cavab verməklə, ətraf regionlarda geniş əməkdaşlıq və rifah platformalarının formalaşmasında da mühüm amil kimi çıxış edir. Yeni reallıqlar Cənubi Qafqazda və Yaxın Şərqdə sülh və əmin-amanlığa, iqtisadi-ticari-investisiya həmrəyliyinin yaranmasına xidmət edir.

***E.CƏFƏRLİ***

# Papanın ilk xarici səfəri: Niyə məhz Türkiyə?

Çoxdan idi ki, müzakirələri aparılan səfər baş tutub - Vatikan rəhbəri XIV Leo vəzifəsinin icrasına başlamasından cəmi 6 ay sonra ilk xarici səfərini Türkiyəyə edib. Səfər çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan və XIV Leo təkbətək və geniş formatda baş tutan görüşlərdə, mətbuata verdikləri bəyanatlarda dünyaya bir sıra önəmli mesajlar ünvanlayıblar.



## Papa XIV Leo: Türkiyə dünya nizamında mühüm yer tutur

Təbii ki, Papanın bu vəzifədə ilk xarici səfərini Türkiyəyə etmək seçimi təsadüfi olmayıb. Bu, qardaş Türkiyənin regionda və dünyada artan nüfuzu ilə bağlıdır. Bu gün Türkiyə müasir nəsil silahları ilə hərbi gücdür, genişlənən böyük iqtisadiyyatdır. Ən önəmli məqamlardan biri də rəsmi Ankaranın qətiyyətli siyasi iradəsi ilə bağlıdır. R.T.Ərdoğan BMT tribunasından və digər yüksək kürsülərdən daim beynəlxalq prinsiplərin gözlənilməsinə çağırışlar edir, güc mərkəzlərini, bütün dünyanı ədalətə səsləyir. Eyni zamanda, Ankara ayrı-ayrı coğrafiyalarda müharibə alovlarının söndürülməsinin tərəfdarıdır. Bunun təsdiqi olaraq Türkiyə təkcə son vaxtlarda öz imkanlarını təqdim etməklə Qəzzada və Ukraynada sülhə nail olunması üçün davamlı səylər göstərib.

Türkiyənin Vatikan üçün də cəlbediciliyini artıran digər bir məqam ölkənin tolerant mühiti ilə bağlıdır. Müqəddəs Taxt-Tacın sahibi ilə görüşdən sonra verdiyi açıqlamada qlobal qeyri-müəyyənliklərin artdığı bir dövrdə sülh və ədalətin önəmini qeyd edən Ərdoğan, Türkiyənin fərqli mədəniyyətlərin və dinlərin yanaşı yaşadığı unikal bir ölkə olduğunu xatırladıb. Prezident son illərdə ölkə üzrə çoxsaylı kilsə və ibadətgahların bərpa edilərək yenidən istifadəyə verildiyini də diqqətə çatdırıb. Yeri gəlmişkən, Papanın səfər proqramının gündəliyinə həmçinin Türkiyədə xristian inancının əsas mətnlərindən sayılan Nikeya etiqadının qəbul olunduğu Nitseya Şurasının 1700 illiyi münasibətilə keçirilən mərasimdə iştirak da daxildir. Bu, bir daha təsdiqləyir ki, qardaş ölkədə bütün etiqadlar azaddır.

Səfər çərçivəsində keçirdiyi görüşlərdə və verdiyi açıqlamalarda Papa hazırda Türkiyənin dünya nizamında mühüm yer tutduğuna xüsusi diqqət çəkib. O, Ankarada Prezident Kompleksində keçirilən tədbirdə çıxışı zamanı bildirib ki, Türkiyə həm bu gün, həm də gələcəkdə Aralıq dənizi regionunun və bütün dünyanın formalaşmasında strateji rol oynayır. XIV Leo səfər loqosu kimi Çanaqqala körpüsünün seçilməsinin Türkiyənin xüsusi rolunu simvolizə etdiyini bildirərək deyib: "Bu körpü Türkiyənin daxili müxtəlifliyini birləşdirir və ölkənin Asiya ilə Avropanı, Şərqlə Qərbi bağlayan strateji keçid olduğunu nümayiş etdirir."

## Türkiyə və Vatikanın üst-üstə düşən sülh gündəliyi

Səfər çərçivəsində keçirilən görüşlərdə və mətbuata verilən bəyanatlarda R.T.Ərdoğanın və XIV Leonun dünyaya verdikləri əsas mesaj sülhlə bağlı olub. Qardaş ölkənin dövlət başçısı Türkiyənin Suriyadan Ukraynaya qədər milyonlarla qaçqına sığınacaq verdiyini vurğulayıb. O, çıxışında Fələstin məsələsindən danışarkən deyib ki, 70 mindən çox qəzzalı həyatını itirib.

Fələstinə borcumuz ədalətdir. Bu isə 1967-ci il sərhədləri əsasında iki dövlətli həllin həyata keçirilməsi ilə mümkündür".

Ankaranın regionda, dünyada sülhə sadiqliyi hər zaman barışıq ideyalarını təşviq edən Vatikanın mövqeyi ilə üst-üstə düşür. Papa XIV Leonun Ukrayna müharibəsi ilə bağlı sülh və diplomatiya çağırışları qlobal səviyyədə böyük əhəmiyyət daşıyır. Eyni zamanda, Müqəddəs Taxt-Tac da iki dövlətli sülh planını dəstəkləyir. Səfər çərçivəsində xatırlandığı kimi, sentyabr ayında Papa Leo Vatikan şəhərində İsrail Prezidenti İsxak Hersoq ilə görüşündə Qəzzadakı "faciəvi vəziyyət"i gündəmə gətirib. Türkiyədə verdiyi açıqlamasında qlobal gərginliyin artdığını deyən Papa hazırkı dönəmi "Papa Fransiskin adlandırdığı kimi, tədricən inkişaf edən üçüncü dünya müharibəsi riski" adlandırıb. O bildirib ki, bu dinamika insanlığın real problemlər - sülh, aclıqla mübarizə, səhiyyə, təhsil və ekoloji qorunma - üzərində diqqətini yayındırır. Papanın bu fikirləri dünyaya müharibələrdən uzaq durmaq mesajı kimi qəbul edilməlidir.

*Mübariz FEYİZLİ*

# Bir gündə üç ünvan!

## Böyük Qayıdış davam edir...

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti üzrə hazırlanmışdır**

Xalqımızın ən acı və ağrılı tarixlərindən biri olan 30 illik qaçqınlıq dövrü artıq geridə qalıb. Demək olar ki, hər gün azad edilmiş ərazilərimizə müxtəlif ünvanlardan köç yola salınır. Qayıdışın hər addımı, hər yeni başlanğıcı həm qəlbləri fərəhləndirir, həm də ümidlərimizi canlandırır. Yüzlərlə ailə, torpaqlarına, evlərinə, illərlə həsrət qaldığı yurdlarına geri dönür.

Böyük Qayıdışın emosional yükü çox böyükdür. Dədə-baba torpaqlarından didərgin düşmüş bir xalqın öz yurduna geri dönməsi, yalnız coğrafi dəyişiklik deyil. Bu, eyni zamanda xalqımızın öz kimliyini bərpa etməsinin, tarixini yenidən yazmasının başlanğıcıdır.

İşğaldan azad edilmiş ərazilərdə dağıdılmış tarixi, dini, mədəni abidələrimiz, təbiətimiz bərpa olunur. Bu istiqamətdə Heydər Əliyev Fondu da xüsusi fəallıq göstərir, vaxtilə ermənilər tərəfindən dağıdılmış milli və mənəvi irsimizin bərpasına layiqli töhfələr verir. Fondun həyata keçirdiyi quruculuq layihələri qədim yurd yerlərimizin tarixi şöhrətini və özünəməxsus ənənələrini geri qaytarır.

Xatırladaq ki, 2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" da təsdiq olunub. Ötən dövrün mənzərəsi göstərir ki, proqramda qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılır. Proqramdan irəli gələrək Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının hərəkətə gətirilməsi, azad edilmiş ərazilərdə istehsal sahələrinin yaradılması, doğma yurdlarına geri dönən keçmiş məcburi köçkünlərin məşğulluq imkanları, insan kapitalının inkişaf etdirilməsi, sosial dəstək mexanizmlərinin geniş tətbiqi kimi məsələlər də diqqət mərkəzində saxlanılır.

## İnfrastruktur yenidən qurulur...

Böyük Qayıdışın uğurla həyata keçirilməsi üçün ilk növbədə, möhkəm iradə və strateji yanaşma lazımdır. Dövlətimiz isə bu işin öhdəsindən lazım olduğu kimi gəlir. Bu proses yalnız evlərin tikilməsi və infrastrukturların bərpası ilə məhdudlaşmır. Kənd təsərrüfatı, turizm və sənaye sahələrinin inkişafı üçün xüsusi proqramlar hazırlanır ki, yerli əhali yalnız evlərinə qayıdaraq, eyni zamanda iqtisadi həyatlarını da yenidən qura bilsinlər.

İnfrastruktur sahəsində böyük layihələr həyata keçirilir. Yolların bərpası, su və enerji təminatının gücləndirilməsi, təhsil və səhiyyə müəssisələrinin yenidən qurulması üçün mühüm layihələrə başlanılıb. Dövlətimizin bu istiqamətdə atdığı bütün addımlar, həmçinin beynəlxalq aləmdə də Azərbaycan Respublikasının mövqeyini gücləndirir. Həm yerli, həm də xarici investorların işğaldan azad edilmiş ərazilərə diqqət yetirməsi, iqtisadiyyatın bərpası və sosial sabitliyin təmin olunmasında mühüm rol oynaya bilər.

## Üç ünvan, 62 ailə, yeni həyat...

Dünən işğaldan azad olunmuş üç fərqli ünvana köç yola salınıb.



Ölkənin müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələr Ağdam rayonunun Xıdırlı kəndinə, Zəngilan rayonunun Məmmədbəyli kəndinə və Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə yola salınıb. Bu mərhələdə Xıdırlı kəndinə 13 ailə, 48 nəfər, Qırmızı Bazar qəsəbəsinə 16 ailə 55 nəfər, Məmmədbəyli kəndinə isə 33 ailə - 177 nəfər köçürülüb. Köçürülən ailələrə mənzillərin açarları təqdim edilib.



Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan dövlətinin həyata keçirdiyi genişmiqyaslı bərpa işləri nəhəng və əzəmətli quruculuğun parlaq nümunəsidir. Prezident İlham Əliyevin qətiyyəti, əzmi və xüsusi qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə həyat yenidən canlanır. Ölkə başçısının azad edilmiş ərazilərə hər səfəri yeni obyektlərin təməllərinin atılması və inşaat işlərinin yekunlaşdırılması ilə əlamətdar olur. Bütün bunlar, o cümlədən Böyük Qayıdış bu il də sürətlə davam etdirilib. Bərpa edilməkdə olan müxtəlif yaşayış məskənlərinə keçmiş məcburi köçkünlərin dönüşü təmin olunub. Bütövlükdə 2025-ci il Böyük Qayıdış proqramının həyata keçirilməsi istiqamətində uğurlu mərhələ hesab olunur. Hər birimiz bu mərhələnin növbəti illərdə də uğurla, əzmlə və böyük ruh yüksəkliyi ilə davam edəcəyinə əminik...

*Yeganə*

# Qızıl niyə ucuzlaşır?

Son həftə ərzində qlobal bazarlarda səhm və virtual pul alətləri, eləcə də qiymətli metalların dəyərlərində qiymət dalğalanmaları yenidən davam etdi. Dünyanın ən böyük iqtisadiyyatı olan ABŞ-da baş verən makroiqtisadi risklər fonunda birjalarda risklər qalmaqla bazardakı gərginliklərin hələ uzun müddət davam edəcəyini şərtləndirir. Analitiklərin təhlillərində qeyd olunur ki, ABŞ-da işsizlik səviyyəsinin artması və əmək bazarında güclü qeyri-müəyyənliyin müşahidə edilməsi faiz siyasəti ilə bağlı spekulyasiyaları aktivləşdirir ki, bu da maliyyə alətlərində mənfi tendensiyalara yol açır. İlk növbədə, bazarlarda dollar indeksində müəyyən bərpa müşahidə olunsa da, risklər hələ tam aradan qalxmayıb. Ancaq ötən aya baxanda ABŞ valyutasında dəyər indeksinin möhkəmlənməsi müşayiət olunur.

Baş verən fraqmentasiyalar qızılın dəyəri ilə bağlı volatilliyi də azaltmayıb və qeyri-müəyyənliklər davam etməkdədir. Noyabrın əvvəllərindən qızılın birja qiymətləri 4200-4100 dollar səviyyəsində dövr etsə də, birjalarda son 2 gündə qızılın bir troya unsiyasının qiyməti 4080 dollara düşüb. Nyu-Yorkun "COMEX" əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 4070,8 dollar təşkil edib, gümüş isə 0,24 dollar azalaraq 53,37 dollara bərabər olub. Bu, 2025-ci ilin oktyabrında 1 unsiyası 4400-ə satılan metalın cəmi bir ayda 350 dollara yaxın ucuzlaşması deməkdir. Bir sözlə, tarixi maksimum dəyər əldə edən bu aktiv bir ayda 10 faiz ucuzlaşıb.

**ABŞ hökumətinin siyasəti bazara təsir edir**

Əlvan metalın ucuzlaşmasının səbəbi bir neçə faktorla səciyyələndirilir. Ekspertlər bildirir ki, qızılın yüksəlişi yalnız əlverişli makroiqtisadi şəraitdən qaynaqlanmır, əsas səbəb artan qeyri-müəyyənlikdir. Bazardakı müxtəlif situasiyalar və aktivlərdəki dəyər boşluqları qızılı cəlbedici aləti və "təhlükəsiz liman", eyni zamanda portfelin diversifikasiyası üçün dəyərli alətə çevirir. Eyni zamanda, Donald Trampın investisiya bazarına müdaxilələri də bu proseslərdə az rol oynamır. Trampın maliyyə siyasəti ucuz dollar, bahalı qızıl və rəqəmsal valyuta investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl və blokçeynlər bahalaşır.



Bu baxımdan qızılın qiymət artımını təmin edən amillərdən biri kimi ABŞ administrasiyasının maliyyə-monetar və ticarət siyasəti uzun aylar ərzində yüksək qiymət indeksini qoruyub saxlayıb. Hazırda isə ABŞ hökumətinin fəaliyyətindəki dəyişikliklər, siyasi gərginliklər, ABŞ-Çin ticarət mübahisələrinin bərpası, monetar proseslər əks istiqamətə səmt alıb və bu vəziyyət investorları qızıl almağa təşviq etdiyi kimi, bazardan çəkilməsini də labüdləşdirir.

**İnvestorlar qızıla əvvəlki kimi çox yatırım etmir**

Son bir ay ərzində Amerikanın maliyyə siyasəti, monetar qərarları, bazar riskləri, inflyasiya rəqəmləri ilə bağlı narahatlıq doğuran hallar bazarda təsiredici rol oynamaqdadır. Təkcə son bir həftədə ABŞ Mərkəzi Bankının (FES) monetar siyasəti ilə bağlı tərəddüdlü açıqlamaları və faizlərin aşağı salınması ehtimallarının azalması barədə siqnallar qızıl üçün yeni təzyiq yaradıb. Qızıl riskdən qorunma aləti və qiyməti dollarla ifadə olunduğu üçün bu valyutanın dəyərinin dəyişməsinə həssas reaksiya verir. Dolların alıcılıq qabiliyyətinin və bazar indeksinin güclənməsi qızıl üçün mənfi amil olmaqla sarı metala yatırımlara xərclərin dəyərini artırıb. Qızıl dividend verən istiqrazların gəlirliliyi ilə də bağlıdır. Qızıl dividend vermədiyi halda və digər aktivlər daha əlverişli olduqda investorlar xərcləri həmin istiqamətə yönəldir və qızılın dəyəri düşür. Bu baxımdan beynəlxalq alıcıların qızıl yatırımlarına xərcləri artdığından alış imkanları da çətinləşməkdədir və qızıl bazarında əvvəlki sərmayə axınının tərs istiqamətə yönələn rejimə keçməsi müşayiət olunmaqdadır.

Qızıl bazarında psixoloji faktor da müəyyən təsiredici rol oynayır. Bu səbəbdən bu qiymətli metalın qiymətinin FES-in faiz endirimləri ehtimallarının olmayacağına dair bazar icmasında yaranmış psixoloji qorxu və ehtiyatlılıq amili ilə bağlı bir müddət ucuz satılacağı istisna deyil. Analitiklər hesab edirlər ki, qızıl 3900 dollar səviyyəsinədək düşəcək. Qlobal iqtisadi indikatorlardakı mənfi göstəricilərin və ABŞ Federal Ehtiyat Sisteminin siyasəti dəyərli metalın gələcək qiymətinə ciddi təsir edəcək.

**2026-cı ilin proqnozu qeyri-müəyyənlikdən xəbər verir**

Qızılın qlobal bazar qiymətləri ilə bağlı proqnozlarda da dəyişikliklər meydan çıxmaqdadır. Bir neçə ay bu metalın dəyər indeksini 4500-5000 civarında proqnozlaşdıran institut və agentliklər indi aşağı qiymət əmsalı fərz edir. Britaniyanın ən böyük bankı "HSBC" ilin ortalarında orta proqnozu artıraraq 2026-cı ildə qızılın unsiya qiymətinin 5000 dollar olacağını ehtimal etsə də, bu rəqəmi azaltmağa məcbur olub. "Bitwise Asset Management" şirkətinin baş investisiya direktoru Metyu Hoqan hesab edir ki, qızıl uzun dövr ərzində 4000 dollar civarında satış ediləcək. "SPI Asset Management" şirkətinin analitiki Stiven İnnesin sözlərinə görə isə, əlvan metalda cari ilin yekununda orta dəyər 3800-4100 dollar gözlənilir. Qızılın dəyərinin artacağı ilə bağlı mühakimə yürüdən digər ekspertlər bu qənaətdədir ki, 2026-cı ildə qiymətlərin yenidən yüksəlmə ehtimalı ən yaxşı halda 5-10 faiz olacaq. Yəni 2025-ci ilin ortalarında unsiyası 3300-3400 dollara satılan qiymətli metalın inanılmaz ecazkar yüksəlişi təkrarlanmayacaq.

*E.CƏFƏRLİ*

# İlk "Sanksiyalar" sammiti...

## Ukraynaya kömək edəcəkmi?

Rusiya-Ukrayna müharibəsində diplomatik təşəbbüslərin artdığı vaxtda cəbhə xəttində döyüşlər güclənir. Rusiya qoşunları diplomatik masada üstünlüyünü qorumaq üçün daha çox ərazi ələ keçirməyə çalışır. Belə bir şəraitdə Kiyev və müttəfiqləri hücumların miqyasını azaltmaq və Rusiyanı zəifltmək üçün müxtəlif təşəbbüslər göstərir. Belə təşəbbüslərdən biri də Rusiyaya qarşı sanksiyaları daha da gücləndirməkdir. Kiyevdə keçirilən ikigünlük ilk "Sanksiyalar" sammiti də bu məqsədə xidmət edir.

### 21 ölkənin nümayəndələri bir arada...

Qeyd edək ki, sammit ABŞ, Böyük Britaniya və Avropa İttifaqı (Aİ) ölkələri də daxil olmaqla 21 dövlətin nümayəndələrinin iştirakı ilə baş tutub. Açılış mərasimində Aİ-nin Ukraynadakı səfiri Katarina Maternova bildirib ki, Rusiya tərəfi diplomatiyanı deyil, yalnız gücü anlayır, məhz buna görə də təsir göstərməyin ən səmərəli vasitələrindən biri sanksiyalar olaraq qalır.

Ukrayna Prezidentinin sanksiya siyasəti üzrə müşaviri Vladislav Vlasuk isə deyib ki, sammit iştirakçıları artıq tətbiq olunmuş tədbirlərin effektivliyini təhlil edərək Rusiyaya enerji, maliyyə və kriptovalyuta sxemləri kimi əsas sektorlarda təzyiqin gücləndirilməsi imkanlarını nəzərdən keçirir. Onun sözlərinə görə, Rusiya məhdudiyyətləri aşmaq üçün kriptovalyuta sxemlərindən istifadə edir. Ukrayna Baş nazirinin müavini Yuliya Sviridenko maliyyə sanksiyalarının zəruriliyini vurğulayıb. O qeyd edib ki, kriptovalyuta və kölgə sxemləri vasitəsilə aylıq maliyyə axını milyardlarla dollar təşkil edir və bu, əks tədbirlərin işlənib hazırlanmasını tələb edir.

Aİ-nin sanksiyaların icrasına nəzarət üzrə xüsusi nümayəndəsi Devid O"Sallivan isə bildirib ki, qurumun 19 sanksiya paketi, eləcə də ABŞ, Böyük Britaniya, Kanada və Yaponiyanın məhdudiyyətləri artıq səmərə verir və Rusiyanın iqtisadiyyatına təsir edir. Onun sözlərinə görə, bu istiqamətdə iş davam etməlidir.




### 20-ci sanksiyalar paketi nə vaxt hazırlanacaq?

Sammitin nəticəsi olaraq beynəlxalq sanksiya koalisiyasının gücləndirilməsi üzrə əlavə planın hazırlanacağı, həmçinin Aİ-nin 20-ci sanksiya paketinə dair təkliflərin formalaşdırılacağı nəzərdə tutulur.

Bununla belə, "Politico" nəşrinin öz mənbələrinə istinadən yaydığı informasiyaya əsasən Avropa İttifaqı yeni il tətilinə qədər Rusiyaya qarşı 20-ci sanksiyalar paketində heç bir irəliləyiş gözləmir. Məlumata görə, hazırda bu məsələ Aİ üçün prioritet sayılmır. "Hazırda bu, prioritet deyil",-deyə Avropa hökumətlərindən birinin rəsmisi bildirib. Başqa bir diplomat isə qeyd edib ki, yeni təkliflərin hazırlanmasına cavabdeh olan komissiyanın təxminən yanvar ayında ideyalar irəli sürməyə başlaması gözlənilir.

Xatırladaq ki, Avropa İttifaqına üzv ölkələr Rusiyaya qarşı sonuncu - 19-cu sanksiyalar paketini oktyabr ayında qəbul ediblər. Bu istiqamətdə işlərə hələ iyul ayında - 18-ci sanksiyalar paketi təsdiqləndikdən dərhal sonra başlanmışdı. O zaman Avropa İttifaqı "yarımçıq tədbirlərlə kifayətlənməyəcəyini" bəyan etmişdi. 19-cu sanksiyalar paketinin qəbulu isə asan olmayıb. Çünki Aİ daxilində həmin məhdudlaşdırıcı tədbirlərin qəbul olunmasına bir sıra müqavimətlər var idi. Narazılar hesab edirdilər ki, bu sanksiyalar Aİ ölkələrinə də mənfi təsir göstərə bilər. Buna baxmayaraq, ittifaq daxilində konsensusa gəlmək mümkün olub. Avropa İttifaqının 19-cu sanksiyalar paketi üzv ölkələrə Rusiyadan maye qaz idxalını qadağan edir. Bu sanksiyalar paketi, həmçinin Rusiya diplomatlarının Avropa İttifaqı ölkələri ərazisində hərəkətinə məhdudiyyətlərin tətbiqini də ehtiva edir. Qadağanın mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Qısamüddətli müqavilələr üçün 6 aylıq keçid dövrü müəyyən edilib. Uzunmüddətli müqavilələr üzrə qadağa isə 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Sanksiya siyahısına "kölgə donanması"nın daha 117 tankeri daxil edilib, bununla da sanksiya altında olan gəmilərin ümumi sayı 558-ə çatır. "Maliyyə" blokuna qarşı məhdudlaşdırıcı tədbirlər aşağıdakıları əhatə edir: Rusiya tərəfindən istifadə olunan təyyarə və gəmilərin üçüncü ölkəyə satıldıqdan sonra ilk 5 il ərzində sığortalanmasının qadağan edilməsi; beş Rusiya bankı ilə əməliyyatlara tam qadağa qoyulması və elektron ödəniş sistemlərinə, xüsusilə "Mir" sisteminə mövcud qadağanın, eləcə də Belarus və Qazaxıstandakı daha dörd banka qarşı sanksiyaların genişləndirilməsi. Bundan başqa, Avropa operatorlarının Rusiyada turizmlə bağlı xidmətlər göstərməsinə qadağa qoyulacaq.

### ABŞ senatorları müzakirələri müvəqqəti dayandırıblar

Diqqətçəkən məqam həmin vaxt Aİ ilə yanaşı, ABŞ-ın da Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etməsidir. Belə ki, Vaşinqton Rusiyanın 2 ən böyük neft şirkətinə qarşı yeni sanksiyalar tətbiq edib. ABŞ Maliyyə Nazirliyinin açıqlamasına görə, yeni sanksiyalara "Rosneft" və "Lukoyl" neft şirkətləri məruz qalıb. "ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi Rusiyanın Ukraynadakı müharibənin sülh yolu ilə başa çatdırılması prosesinə ciddi sadiqlik göstərməməsi səbəbindən əlavə sanksiyalar tətbiq edir", - deyə Maliyyə Nazirliyinin açıqlamasında qeyd olunub. Həmçinin "Lukoyl"un 6 törəmə şirkəti, xüsusilə "Lukoyl-Zapadnaya Sibir" və "Lukoyl-Kaliningradmorneft" də sanksiyalar siyahısına daxil edilib. Siyahılarda təxminən 30 törəmə şirkəti olan "Rosneft"in "Sibneftegaz", "Rospaninterneşnl", "RN-Purneftegaz" kimi şirkətləri də sanksiyalar siyahısına düşüb. ABŞ Maliyyə Nazirliyi açıqlamada "50 faiz qaydası"nı xatırladıb. Belə ki, "SDN List"də adıçəkilən şirkətlərin bütün törəmə şirkətləri, həttə "qara siyahı"da birbaşa adları çəkilməsə belə, sanksiya altında hesab olunur.




Bütün bunların fonunda Kiyevdə keçirilən "Sanksiyalar" sammitinin Ukrayna üçün faydasının olub-olmadığını zaman göstərəcək. Aİ rəsmilərinin açıqlamalarından da bəlli olduğu kimi, 20-ci sanksiyalar paketi ilə bağlı fəal müzakirələr gələn ildən başlayacaq. Bu arada, ABŞ senatorları da Rusiyaya qarşı sanksiyalara dair qanun layihəsinin müzakirəsini müvəqqəti olaraq dayandırıblar. "Kyiv Post" nəşrinin məlumatına görə, qanun layihəsinin müzakirəsi Prezident Donald Trampın xüsusi nümayəndəsi Stiv Uitkoffun yaxın günlərdə Moskvaya planlaşdırılan səfəri ilə bağlıdır. Respublikaçılar isə hesab edirlər ki, qanun layihəsinin qəbulunu ləngidən əsas amil Donald Trampın mövqeyidir. Moskva əleyhinə sanksiya paketini Senata anti-Rusiya ritorikası ilə tanınan Lindsi Qrem təqdim edib. Sənəddə Rusiyadan neft, neft məhsulları, təbii qaz və uran alan ölkələrdən idxala 500 faiz gömrük rüsumunun tətbiqi təklif olunur.

"Bloomberg" agentliyinin məlumatına görə, senatorlar prezidentin dəstəyi olmadan bu sənədi qəbul etməyə hazır deyillər. Donald Tramp isə açıqlamasında qanun layihəsinin taleyinin onun şəxsi qərarından asılı olduğunu bildirib. Beləliklə, görünən odur ki, Kiyev müttəfiqlərinin Rusiyaya qarşı sanksiyalarla bağlı yeni qərarını hələ müəyyən müddət gözləməli olacaq.

***N.BAYRAMLI***

# Materiyanın çürük zənciri

## Saday Budaqlının "Fevral" povesti haqqında

**əvvəli ötən saylarımızda**

Adsız qəhrəman, qardaşının qardaşı kor-peşman evə qayıdası olur, avtobus dayanacağında fikrə dalıb sərinləyən şüurunu ovudur: "Evdə onu nə gözlədiyini, günün necə başlayıb necə qurtaracağını bildiyindən birdən-birə sakitləşmişdi. Hərdən-hərdən yenə qızları gəlib onu yoluxacaqdı, növbəylə ağları dəyişib yumağa aparacaqdılar, heç vaxt da onlarla ürək söhbəti eləyəmməyəcəkdi, dərdini, ağrısını onlardan gizlədəcəkdi, çünki həmişə fikirləşib ki, ata övladına ancaq sevinc verməlidi. Hərdən də bacısı bir qab qonşu payı gətirəcəkdi, bəzən heç söhbətə oturmayacaqdı da, evin səliqə-sahmanına ötəri göz gəzdirib xudahafizləşmədən, nəyisə fikrində götürqoy edə-edə, dodağının altında mızıldaya-mızıldaya çıxıb gedəcəkdi. O da tək qalanda arvadını xatırlayacaqdı, çalışacaqdı haçansa evli olduğuna özünü inandırsın, arvadı süfrəyə yemək gətirəndə nə hiss keçirdiyini yadına salsın. Hər şey olmuşdu: yuxusuz gecələr də, doğulacaq uşağın sevinci də, məhrəm yaxınlığın xoş utancaqlığı da, ancaq ayrı-ayrı əhvalatlar kimi, bütün bunlar da elə bil başqa adamın başına gəlmişdi, ona bir qırıq da dəxli yoxdu..."

Əslində, o, qardaşının ölümünə ağlamaq istəyirdi, indi isə onun ölmədiyinə ağlayır: "Qardaşından ötrü birdən-birə darıxdı. Və çarpayıya çöküb bütün qocalar kimi astadan, için-için ağladı".

***

Maddi-bioloji dünya ayrılıqlar, itkinliklər, yadlaşmalar üzərində qurulub. Nəsillər dəyişdikcə doğmalar yada çevrilir, qohumlar bir-birini tanımır. Şəhərdə bu proses sürətlə, kənd yerlərində bir az ləng gedir. İndi elm də sübuta yetirir ki, bütün bəşəriyyət bir kökdən törəyib, ancaq heç bir elmi kəşf, fəlsəfi ixtira insanlar arasındakı düşmənçiliyin qarşısını ala bilmir. Məsələnin paradoksal tərəfi burasıdır ki, yaxınlar, doğmalar arasında nifaq, barışmazlıq daha amansız, daha qəddar olur, dostun düşmənə dönməyi düşmənin dosta çevrilməyindən asan başa gəlir. Doğmalıq bağları bioloji saplardır, saysız-hesabsız mikrobun, virusun, bakteriyanın hesabına əmələ gəlib, ona görə də bu tellərin bəlli müddətdən sonra çürüməsi, qırılması, kollektiv orqanizmdə cürbəcür fəsadlar verməsi labüddür, təbiətin qanunudur. Təbiət bütün üzvi varlıqları yaradır, işlədir, köhnəldir, sonra da kamına çəkib aradan qaldırır - əlbəttə, bir çox halda proses məntiqi sonluğuna çatmayıb yarımçıq başa çatır. Tarixçəsini gözdən keçirdiyimiz ailənin taleyi kimi.

Əsərdə xatırlanan ata obrazı ana təbiətin həyata keçirdiyi yaradıcı prosesin birbaşa iştirakçısı, icraçısıdır. Övladları onun surətini Tanrının obrazı kimi, yaxud da dağınıq qövmünü toparlayıb qanadının altına yığan peyğəmbər, xilaskar kimi qavrayırlar. Ancaq eli, tayfanı bir yerə yığan ata özcə övladlarını başına toplaya bilmir, balalar böyüyüb gimrikləşdikcə yadlıq, düşmənlik virusları fəaliyyətə keçir, ayrılıqlar, itkinliklər başlayır. Bunlara görə kimisə qınamaq da çətindir (heç müəllif də məsələyə bu mövqedən yanaşmır), çünki bütün bu sayaq fəsadlar varlığın mayasından, materiyanın xassəsindən törəyir. Ayrılıq da, itkinlik də insanın qədəridir, ağacın budaqları bir-birindən aralı düşdüyü kimi insan da öz kökündən, doğmalarından uzaqlaşır, ayrıca istiqamət götürüb müstəqil həyata adlayır. Bu, əlbəttə, təbii yoldur, bəşəriyyəti min bir qövmə, tayfaya ayıran, min bir dildə danışdıran, min bir rəngə boyayıb min bir dona bürüyən təkamül prosesidir. Ancaq nəsil ağacının bu prosesdən qıraqda qalan, quruyub tumurcuqlamayan, bar verməyən, xüşk olub çırpıya, oduna dönən budaqları da var.

Bizim mərhum atamız - elindən-obasından ötrü isti yerindən didərgin düşən, qol-budağını qorumaqdan ötrü özünə münbit zəmin axtaran, bir zamanlar şəcərəsini müqəddəsləşdirməklə nəslini yaşatmağı dinə, əqidəyə çevirmiş qədim yəhudi peyğəmbərləritək qövmünün üstündə əsən el atası da ələhəzrət Təkamülün uğursuz qollarından, soldurmağa, qurutmağa qərar verdiyi təlesiz nəsil ağaclarındandır. Böyük oğul itkin düşür, sümüyü də ələ gəlmir. Doğrudur, canı yanana qədər yer üzünə toxum səpməyə macal tapır, ancaq həmin toxum da artıq özgə bağçanın tağında çiçək açıb, doğma torpağından boy verməmiş, kökündən ayrı düşmüş o meyvə də itkin sayılmalıdır. Kiçik qardaş özünü əkməyə yer, becərməyə macal tapmayıb, onu bitirən budağın yolu burada tamamdır. Görünür, kiçik qardaş həm də elə bu səbəbdən çox qəddar, yovuşmazdır, daş ürəyi o dərəcədə bərkiyib ki, eqosunu yaralamaq, onu həttə olası övladıyla da paylaşmaq istəməyib, necə deyərlər, gözü çıxmış qardaşının miskin aqibətindən qorxub. O, elə sağkən itirilmiş övladdır, hələ dipdiri göz qabağından daykən itkindir.

***

O ki qaldı adsız qəhrəmanımıza, onu da Tanrı-atanın itkin balası saya bilərik. Doğrudur, onun bir cüt qızı, iki varisi var, ancaq onlar da artıq bibiləri kimi özgə evin ocağını qoruyur, özgə nəslin çırağını yandırırlar. Artıq onlar da doğmaca atalarına yaddırlar, müəllif bu yadlığı çox incə psixoloji detallarla nəzərə çatdırır: "İndi ancaq qızlarından çəkinir, gəlib yoluxanda, pal-paltarını yuyanda yüz yol "sağ ol" deyir, yerli-yersiz üzlərinə gülümsəyir ki, onları özündən bezdirməsin, qırpım-qırpım üzüləsi bağları birdən qırmasın. Onsuz da necə uzaqlaşdıqlarını görürdü, bu da onu təəccübləndirmirdi, bilirdi ki, belə də olmalıdı, Allah rəhmlidi: övlad ataanadan uzaqlaşmalıdı, elə uzaqlaşmalıdı ki, onları nə vaxtsa itirəcəyi fikrinə öyrəşə bilsin, itirəndə də ağrı az olsun".

Vəssalam. Bu da bizim qəhrəmanın itmiş axırı. Sonuncu sevinci də əlindən çıxandan sonra fevral sazağı tezliklə onu aparacaq. Bir gecə hamıdan xəbərsiz canını tapşıranda bəlkə də neçə gün onun öldüyündən xəbər tutan olmayacaq. Onun sonu heç də böyük qardaşı Vəlinin aqibətindən uğurlu gəlməyəcək. Kiçik qardaşı onun iylənmiş cəsədinə ikrahla, həqarətlə baxacaq, yanına düşüb xəstəxanaya necə həvəslə getdiyini istehzayla xatırlayacaq. Qızları, şübhəsiz, sevinəcəklər, ona sevinəcəklər ki, çiyinlərindən ağır bir yük götürüldü. Arvadı da dərindən nəfəs alıb rahatlaşacaq, onu uzaqdan-uzağa güdən bir cüt gözdən, dinşəyən bir cüt qulaqdan, marığa yatıb onun fəlakətini gözləyən pisniyyət bəndədən qurtulduğuna sevinəcək.

Bəs Lüdmila, bəs qardaşı oğlu? Onlar da üzünü görmədikləri adamın ölümünə çətin yanalar. Həm də zaman keçdikcə, yaş ötdükcə doğmalıq sapları çürüyür, qırılır, ayrılan ayrılır, itən itir, yadlaşan yadlaşır.

Çünki ayrılıq dünyanın mayasındadır. Bu dünyada gec-tez hamı ayrılacaq, hamı itkin düşəcək, unudulacaq. Yalnız böyük mənəvi güclə, ruhani enerjiylə dünyanın mahiyyətinə toxunmuş, qəlbinə nüfuz eləmiş azmanlar diri qalacaqlar. Yalnız könül səltənətində bayrağını ucaldanlar itib-batmayacaqlar, yaşayacaqlar. Doğmalıq tellərinə, bioloji saplara, materiyadan toxunma zəncirlərə etibar yoxdur; əgər olsaydı, bir atanın, bir ananın övladları min illərdir bir-birinə qənim kəsilməzdilər. Fakt odur ki, kəsiliblər, bu gün də bir-birini məhv eləməkdən ötrü, bir-birinin əcəlindən özlərinə həyat iksiri qayırmaqdan ötrü pusquda durublar.

Gerçək doğmalıq - mənəvi doğmalıqdır. Yalnız mənəvi tellər insanları doğrudan bir-birinə bağlamağa, adamlar arasından maddi sərhədləri götürməyə, həqiqi könül sarayında həqiqi birlik, ümumbəşəri məbəd yaratmağa qadirdir. Qalan bütün birliklər şaxələnən bir nəslin törəmələri kimi qəlpələnib dörd tərəfə səpələnməyə, doğmalıqdan yadlığa, dostluqdan düşmənliyə çevrilməyə məhkumdur.

***P.S. Noyabrın 13-də Saday Budaqlının 70 yaşı tamam oldu. Bu münasibətlə görkəmli yazıçını təbrik edir, ona möhkəm can sağlığı, yeni yaradıcılıq uğurları diləyirik.***



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# ŞƏNBƏ ÜÇÜN NƏZM









*Əlizadə Nuri*

**Yağışı qarşılamaq**
Bir anlıq gözlərini ver,
Ver baxım bu dünyaya, -
Barı bircə dəfə gözəl
görüm dünyanı!

...Hörüklərini ver,
basım bağrıma
Yüz ilin tənhasıtək
Kirpiklərini ver, hücum çəkim
Ayrılıqların üstünə...
Yanaqlarını ver, - açmaq istəyən
Çiçəkcən göstərim
Dodaqlarını ver,
bir beyt seir yazım....
...Gülüşlərini ver,
su kimi səpib söndürüm
Bu dünyanın əzablarını
Gəncliyini gizlətdin,
Barı uşaqlığını ver, -
Gedək çöldə oynayaq...
...Əllərini ver, tutum əlindən
Gedək yağışı qarşılamağa...

**Bir ürək və... üç nöqtələr...**
Məktubuma cavab kimi yazdığın
Qırıq-qırıq nöqtələr...
- Ürəyimin xətlərini çəkmisən, yox-
sa, -
Sən ki, həkim deyildin!..
Onda sənə olan sevgimi çək,
Ağrı kimi göstər orda...
...Üç nöqtələr, qırıq-qırıq
Xətlər göndərmisən,
O xətləri tutub sənə çatmaq olarmı?

**Bir yağış dindirdi məni...**
Dünya necə fırlanır ki, -
Qalmışam qaldığım yerdə?!
Torpaq da şeir yazacaq, -
Mən lələk saldığım yerdə...

Sevgi səndən, qəhər məndən,
Yol səndəndi, kəhər məndən...
Simlər də inciyir məndən,
Dərdimi çaldığım yerdə.

Mələkdi, nəydi bu yağış,
Bəlkə lələydi bu yağış?
Çiynimə dəydi bu yağış, -
Xəyala daldığım yerdə...

Bu qələm ahnan oynayır,
Şahmatda şahnan oynayır...
Dünya uşağnan oynayır,
Mənim qocaldığım yerdə...
Sözü yalan danışmaq...

Əl də yalan danışar, -
Nə deyim bu əllərə?
Sənə bir şeir yazdım,
Payladım gözəllərə.

Vüqarla yazdığımı,
Sına-sına oxudum.
Sənə yazdığım şeri,
Özgəsinə oxudum...

Sözü narahat edib,
Özüm rahatlanmışam.
Daha dinə bilmirəm,
Dil kimi qatlanmışam...

Suları diksindirən,
Torda, tilovda günah.
Bir şeirlə yüz qızı
Ovlayan "ov"da günah.

...Bir dəfə atdığım ox,
Yüz hədəfə dəyibmiş.
Bir sevgi məktubumu
Yüz qız əzbərləyibmiş...

**Haçansa bizə də and içəcəklər**
Bir gün açacağıq sirr pərdəsini,
Qurtarıb dünyanın yalanlarından.
Bir gün göz yaşına dönərik biz də,
Düşərik bir qızın yanaqlarından...

Qoşulub gedərik əsən yellərə,
Yarpaqlar arxadan əl eyləyəcək.
Kimsə çağıracaq bizi yanına,
Kimsə uzaqlardan "gəl" eyləyəcək.

Torpaq olacağıq bir gün, nə oslun, -
Haçansa bizə də and içəcəklər.
Üşüyən çocuqlar ocaq qalayıb
Bizim üstümüzdə isinəcəklər.

...Bir gün ulduzumuz sönsə səmada,
Biz də yer üzündə sönə bilərik.
Həyata dönməyi demirəm, ancaq,
Bir gün xatirəyə dönə bilərik...

**Gecə reysi**
Bəlkə göydə də bağ var,
Göylər - özü boyda sirr.
Səmadan yarpaq düşür, -
Bəlkə göydə yel əsir?

Bir kölgə keçdi göydən, -
Mələklərmi baxdılar?
Ulduzlar çiçək-çiçək,
Göylər nə xoşbaxtdılar!

Nə dedim dəydi sənə? -
Ay ürəyi yuxa sən...
Qolumu açmadım ki,
Qucağımdan çıxasan?!

...Ömür qaya kimiymiş,
Qayadan çapdım səni.
Mən ki, heç axtarmadım,
Bəs necə tapdım səni?

**Göydə yazılan şeir**
...Tez tez endir
təyyarəni,
təyyarəçi qardaş.
Vətənə
Yuxarıdan aşağı
Baxmaq istəmirəm...

**Yeriyib üstümə qaçar bir ağac**
Ayın şöləsindən əriyər duman, -
Dumanın içindən bir şəhər çıxar.
Gecə işıqları yorulan zaman,
Yerin köynəyindən bir səhər çıxar.

Qocalar o kənddə naçar bir ağac,
Getsəm, - çiçəkləyib açar bir ağac...
Yeriyib üstümə qaçar bir ağac,
Sanaram qarşıma yüz nəfər çıxar...

Bir yol yoxuşunda ölə bilərəm,
Bir yaz yağışında ölə bilərəm.
Bir qız baxışından ölə bilərəm, -
Ancaq qorxuram ki, birtəhər çıxar...

**Yaxşı ki, xoşbəxt deyilik...**
Məktubumu oxuduğun,
Əllərindən şerim səni.
Evinizə elçi düşdü,
Gətirmədi evim səni.

Günahı kimdə axtaraq, -
Bir nəfərə yük olmasın?
Bu necə sevgidi, Allah,
Böyüsün, böyük olmasın?!..

Bir həsrət var aramızda,
Əlində tətik oynayar.
Oyuncağı olmayanlar
Dünyayla evcik oynayar...

Səmtimizi kim dəyişdi, -
Qoşa axan sulardıq ki?
...Yaxsı ki, xoşbəxt deyilik,
Yoxsa nə arzulardıq ki?!

**Yelə yalvarram, elə yalvarıram...**
Yalvardım, - tez açılsın
Yazda tumurcuqlara.
Baxtı bağlı əlləri
Açılmış çocuqlara...

Üşütməsin saçını
Yalvardım yağışlara.
Yalvarmışam Şuşanı.
Deyib - uçan quşlara...

Sən yatdığın yuxuya,
Mürgünə yalvarmışam.
Heç vaxt solmasın deyə,
Bir gülə yalvarmışam.

Üzü Şuşayadırsa,
Əsirsə o ellərə, -
Heç vaxt əyilməyən sən
Yalvar indi yellərə...

**Səni bir kədər soruşdu...**
Özümü tuta bilmədim, -
Yenə də tutdum adını.
Ürəyimin sularında,
Yuyub qurutdum adını.

Kim deyirdi, "sevgi suçdu"
O özü də eşqə uçdu...
...Səni bir kədər soruşdu.
Yaxşı unutdum adını!

Sevgi adlı bir quş vardı,
Onunla qurtuluş vardı...
... "Oyun"da yüz uduş vardı, -
Yaxşı ki, uddum adını!..

**Dağ**
Səndə yürüşüm var,
bayrağım - lalən,
A dağım, üstümdə əsirdi nanən...
Ay ağac, göylərə çəkildi nalən, -
Kəsildin, ağladı, koğuşun altda...

Çobana oxşayır qaraltı adam,
Bir kola sığınnam, neynəyirəm
dam?
Kimsə oxuyurdu yağışlı axşam.
Səsi islanırdı yağışın altda...

Burda çiçəklərin dodaqları nəm,
Burda fırça gərək, acizdi qələm.
...Bu gecə yuxuda balamı görrəm, -
Bir bala görmüşdüm bir quşun alt-
da...

**Qurudu dar ağacları...**
Ürəyində deyiləmsə,
Yanında yer saxlama.
Bu gül səninçün açılıb,
Şeh vaxtı dər, saxlama.

Sevgi nədi - sirdi bütün,
Gözdə başlar, qəlbdə bitər...
Aç sinəni sətir-sətir, -
Sinəmdə sirr saxlama.

Bu dünyadı, - ya harasa?
Nə gəzirəm aza-aza.
Sevsəm, məni sağaltmasa,
Evində pir saxlama.

Yığışdırın bu tacları,
Kədəri "toxdu" acların...
...Qurudu dar ağacları,
Daha kəndir saxlama.

**Bəzən qürurluyam, bəzən qüruram**
Əgər qısadırsa bu ömür yolu, -
Bəs niyə mən sənə çata bilmirəm.
Bu qədər ulduz var, Ay var səmada,
Mən niyə başımı qata bilmirəm?

Bəzən qürurluyam, bəzən qüruram,
Xoşbəxt olmasam da
xəyal qururam...
Bu dərdi sinəmdə ovundururam,
Dərdi oyaq qoyub yata bilmirəm.

Günəş saçlarıdı, - o dan anadı, -
Girdim qucağına, adam anadı.
Dünya "uğaşını" atan anadı,
Mənsə bu "ana"nı ata bilmirəm.

Dəymə o ağaca, sərhəddi bəlkə?
Araya çəkilən həsrətdi bəlkə?!
Vətənin çöpü də
Sərvətdi bəlkə, -
Mən heç bu çöpü də sata bilmirəm...

**Dünyadan uşaq gedək...**
Dan üzüylə danışaq,
Bir az da susaq, gedək.
Qaranlıqlar içinə,
Biz də üzüağ gedək.

Kədər girsə barıdan,
Ölüm versə Yaradan.
Ancaq vüqar sarıdan,
O dünyaya sağ gedək.

Bu ömür uduşunda,
Nə qaldı ki, huşunda?
...Üşüyüb qəm qışında
Quru bir budaq gedək...

Nə görüb bu bəndədə, -
Ey eşq, saldın bəndə də...
Ağlayaq gedəndə də, -
Dünyadan uşaq gedək.

**Eşq**
Mən bir eşqə düşmüşəm,
Anacan, eşq deyirəm!
Sonda dilimdə bitsin, -
Sonacan eşq deyirəm!

Gec göndərib, nə olsun?
Bir az gərib... nə olsun?
Qışda gəlib, - nə olsun, -
Yanacam, eşq deyirəm!

Var ol, yazı yazan ki,
Sevmək belə asan ki?
Elə kövrəyəm, sanki
Sınacam - eşq deyirəm...

Girmə usanan yola,
Girdim - o salan yola.
Məndən uzanan yola, -
Onacan - eşq deyirəm...

**Gələndə payızı özünlə gətir...**
Deyirsən payızda dönəcəm geri,
Bilirəm, vaxt uzaq, ayrılıq çətin.
Geri qayıdanda tək darıxarsan, -
Gələndə payızı özünlə gətir.

Payızda bir yerdə darıxmazsınız,
Yağışı başlasa, başlasın, nə qəm?
Sarı yarpağını çətir eyləyib
Başının üstündə tutar, bilirəm.

...Çiçək bitirəcək getdiyin o yol, -
Hər gün suvarıram saldığın izi.
Payız da uzaqda, sən də uzaqda,
Durub gözləyirəm hər ikinizi...

Uzaqda yaxına buraxma qəmi,
Çağır xəyalları sən qalanda tək.
Payıza qoşulub qayıdarsınız,
Sarışın hörüklü rəfiqələrtək.

...Bu ömür deyilən nə uzun imiş, -
Günləri - günlərə satıram indi.
Özün qürbətdəsən, səsin burdadı,
Səsinlə başımı qatıram indi...

# Rəqəmsal təhlükələrə qarşı...

*Yeganə BAYRAMOVA*

Smartfonlar, planşetlər və kompüterlər gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bütün günü əlimizdən düşməyən telefonlarda, işlərimizin çoxunu həll etdiyimiz planşet və kompüterlərdə məxfi qalmalı olan şəxsi məlumatlarımız, bank hesablarımız, şifrələrimiz var. Rəqəmsal texnologiyalar müsbət tərəfləri ilə yanaşı, bir sıra təhlükələri də özündə cəmləyir. Bu problemlərin qarşısını almaq, təhlükəsiz bir rəqəmsal mühit yaratmaq isə yalnız texnologiya ilə deyil, həm də maarifləndirmə ilə mümkündür.

İnformasiya təhlükəsizliyi ilə bağlı olan məsələləri, bu sahədə yaranan problemləri və onların həllini işıqlandırmaq məqsədilə hər il 30 noyabr tarixi Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü kimi qeyd olunur. Bu günün yaranmasının isə maraqlı tarixi var.

**İlk kompüter virusu**

1980-ci illərdə kompüterlərdən istifadə tədricən artırdı və internetin yeni yarandığı vaxtlar idi. 30 noyabr 1988-ci ildə "Morris soxulcanı" adlanan ilk kompüter virusu elmi-tədqiqat institutları, hərbi idarələr, hətta Pentaqon da daxil olmaqla ARPANET-in minlərlə qovşağının fəaliyyətinə ciddi ziyan vurdu. Virusun vurduğu ziyan hesablamalara görə, təxminən 100 milyon dollar idi. Məhz bu hadisədən sonra insanlar informasiya təhlükəsizliyinin vacibliyini dərk etdilər və bu istiqamətdə işlər görülməyə başlanıldı. Həmin il Kompüter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabr tarixini Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü olaraq elan etdi. Bir çox ölkələrdə hər il bu tarixdə informasiya təhlükəsizliyi haqqında ictimai maarifləndirmə məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.

Ölkəmizdə informasiya təhlükəsizliyinin hər sahədə təmin edilməsi üçün ciddi işlər aparılır. İnformasiya təhlükəsizliyinin pozulması ilə bağlı qanunlara zidd əməllər aşkar olunduqda həmin şəxslər qanunlara uyğun olaraq cəzalandırılırlar.

**Şəxsi məlumatların qorunması üçün...**

İnformasiya təhlükəsizliyimizi təmin etmək üçün mürəkkəb şifrələrdən istifadə etməli və şifrələrimizi mütəmadi olaraq yeniləməliyik. Şifrələr nə qədər uzun və tərkibi mürəkkəb olarsa, onun başqası tərəfindən ələ keçirilməsi riski o qədər azalar.




## Şəxsi məlumatlarımızı necə qoruyaq?

**Eyni şifrədən istifadə etməyin**

Mürəkkəb şifrələr üçün böyük və kiçik hərflərdən, rəqəmlərdən və fərqli simvollardan istifadə edə bilərik. Şəxsi hesablarımıza eyni şifrəni qoymamağa diqqət yetirmək də vacibdir. Çünki eyni şifrədən istifadə etməklə hesabımızdan birinə daxil olmağı bacaranların digərlərinə də daxil olmasını asanlaşdırmış oluruq. Bunlardan əlavə, bir çox proqramlarda bizə təqdim olunan iki faktorlu doğrulamanın aktivləşdirilməsi də şəxsi məlumatlarımızı qoruya bilməyimiz üçün vacib addımdır. Bu, şəxsi hesabımıza daxil olan zaman şəxsiyyətimizi dəqiqləşdirmək üçün istifadə olunan təhlükəsizlik üsuludur.

**Bu proqramları yükləmək olmaz...**

Kompüterlərimizdə, telefonlarımızda və planşetlərimizdə güvənli antivirus proqramlarından istifadə edə bilərik. Sistemin icazə vermədiyi, yükləyən zaman xəbərdarlıq etdiyi proqramları və ya faylları yükləməkdən çəkinməliyik. Viruslar şəxsi məlumatlarımızın oğurlanmasını asanlaşdıran vasitələrdir.

# "Qadın Dəstək Xətti"nin ispandilli təlimatının təqdimatı keçirildi

*"Azercell Telekom" MMC, Meksika səfirliyi və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi qadınların rifahının yaxşılaşdırılması istiqamətində birgə addım atır*

25 noyabr - Qadınlara qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü və BMT-nin "Narıncı Gün" təşəbbüsü çərçivəsində "Qadın Dəstək Xətti"nin ispan dilində hazırlanmış təlimatının təqdimatı baş tutub. Təşəbbüs "Azercell Telekom" MMC, Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyi və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilib. Tədbirə dövlət qurumları, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, eləcə də diplomatik korpus və beynəlxalq qurumların nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri qatılıblar.

Təqdimatda çıxış edən Azercell-in Hüquq və Data Strategiyası üzrə baş direktoru Şirin Əliyeva şirkətin korporativ sosial məsuliyyət strategiyası çərçivəsində qadınların cəmiyyətdəki rolunun daha da gücləndirilməsinə xüsusi önəm verdiyini vurğulayıb: "Dəstək Xətti qadınların sosial rifahının artırılmasına, çətin vəziyyətdə olan qadınlara operativ dəstəyin göstərilməsinə xidmət edən mühüm sosial layihədir. Məqsədimiz bu an, bu dəqiqə yardıma ehtiyacı olan qadınlara təxirəsalınmaz və peşəkar dəstəyin təmin edilməsidir. Təlimatın ispan dilində nəşri xidmətin əlçatanlığını artıraraq daha geniş auditoriyaya çıxış imkanı yaradır və layihənin təsir dairəsini əhəmiyyətli dərəcədə genişləndirir."

Daha sonra Şirin Əliyeva qonaqları Azercell-in Qadınlara qarşı Zorakılıqla Mübarizə Gününə həsr olunmuş "Oflayn Qadınlar" (https://www.youtube.com/watch?v=waahCx8YfXE) sosial videoçarxını birlikdə izləməyə dəvət edib.

Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mariya Viktoriya Romero Kabalyero təmsil etdiyi ölkənin gender bərabərliyini təşviq edən çoxsaylı təşəbbüslərini qeyd edərək bu istiqamətdə milli və beynəlxalq səviyyədə məqsədyönlü fəaliyyətin həyata keçirildiyini diqqətə çatdırıb. Səfir Viktoriya Romero sözügedən sahədə əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını vurğulayıb: "Bu təlimat dövlət qurumları, özəl sektor və vətəndaş cəmiyyətinin birgə əməkdaşlığı nəticəsində hazırlanıb. Məqsədimiz qadınların gücləndirilməsi, onların hüquqlarının qorunması və gender bərabərliyinin təşviq edilməsidir."



"Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin rəhbəri Kəmalə Aşumova isə öz növbəsində "Qadın Dəstək Xətti"nin fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumatı təqdim edib.

Qeyd edək ki, "Qadın Dəstək Xətti" 2022-ci ildən etibarən "Azercell Telekom" MMC-in təşəbbüsü və tərəfdaşlığı ilə fəaliyyət göstərərək bugünədək 11.300-dən artıq qadına dəstək olub. Dəstək Xətti "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən idarə olunur. Xidmətin əsas məqsədi qadınlara operativ və kompleks psixososial yardım göstərmək, onların reabilitasiyasını və cəmiyyətə reinteqrasiyasını təmin etməkdir. Bu məqsədlə QDX icma əsaslı hüquq klinikaları, dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4997**
**Sifariş: 2405**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova